RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 47 (8640) ÇƏRŞƏNBƏ AXŞAMI, 2 mart 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# Cənubi Qafqazın qalib dövləti

## Məğlub Ermənistanın isə reallıqla barışmaqdan və üçtərəfli bəyanatların bəndlərini yerinə yetirməkdən başqa yolu yoxdur

Azərbaycanın hərbi-siyasi zəfəri, Ermənistanın isə tarixi boyu unuda bilməyəcəyi məğlubiyyəti ilə başa çatan İkinci Qarabağ müharibəsi Cənubi Qafqaz bölgəsində həm də yeni reallıqlara gətirib çıxardı. Ən mühüm reallıq Ermənistanın işğal siyasətinə son qoyulmasıdır. Bəzi beynəlxalq təşkilatların onilliklər boyu məqsədyönlü şəkildə ortaya atdıqları "problemin güc yolu ilə həlli yoxdur" tezisini darmadağın edən İlham Əliyev sübut etdi ki, işğalın qarşısını işğalçını güc yolu ilə cəzalandırmaqla almaq mümkündür.

### Ermənistan havadarlarının gözü önündə cəzalandırıldı

Prezident İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransının da ana xətti Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbəsi idi. İlham Əliyev verilən suallara cavablarında bir daha Azərbaycanın hərbi qələbəsini və eləcə də müharibədən sonrakı proseslər barədə vəziyyəti həm Azərbaycan, həm də xarici auditoriyanın diqqətinə çatdırdı.

İşğal olunmuş torpaqlarımızın azad edilməsi Azərbaycanın dövlət siyasətinin prioriteti idi. Ona görə də respublikamızın xarici siyasətində, bütün dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrdə torpaqlarımızın işğal altında olması daim diqqət mərkəzində saxlanılıb. Ermənistanın işğal siyasətinin ifşa edilməsi istiqamətində müxtəlif səviyyələrdə sistemli və ardıcıl işlər həyata keçirilib. Prezident İlham Əliyev bütün xarici səfərləri, eyni zamanda Bakıya gələn bütün dövlət və hökumət başçıları ilə görüşləri, beynəlxalq təşkilatların tədbirlərində, konfranslarda çıxışları zamanı diqqəti Dağlıq Qarabağ probleminə, Ermənistanın işğalçılıq siyasətinə yönəldib.

Azərbaycan heç vaxt beynəlxalq təşkilatların bu məsələdəki ikili standartları ilə razılaşmadı, bir sıra siyasi dairələrin işğalla barışmağa yönəlmiş təşəbbüslərini yaxına buraxmadı və Prezident İlham Əliyevin hər zaman dediyi kimi, torpaqlarını güc yolu ilə işğaldan azad etdi. Mətbuat konfransında İlham Əliyevin dediyi kimi, indi Azərbaycan yeni reallıq yaradıb və Ermənistan da bununla barışmalıdır: "Otuz il ərzində bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, eyni zamanda ayrı-ayrı ölkələr bizə açıq, yaxud da qeyri-rəsmi mesajlar göndərirdilər ki, reallıq var, Azərbaycan müharibədə məğlub edilmiş tərəfdir, siz reallıqla barışın.

Ardı 4-cü səh.

# Yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir



**Martın 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Gəmiqayırma Zavodunda "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması və eyni təyinatlı "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimlərində iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınması mərasimində iştirak etdilər.

Məlumat verildi ki, "Ro-Pax" tipli "Akademik Zərifə Əliyeva" gəmi-bərəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda inşa olunub.

Prezident İlham Əliyev "Akademik Zərifə Əliyeva" gəmi-bərəsinin suya salınmasını bildirən düyməni basdı.

Birinci xanım Mehriban Əliyeva gəminin suya salınmasını bildirən rəmzi lenti kəsdi.

Qeyd edək ki, yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir və bu istiqamətdə atılan addımlar Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun həyata keçirilir.

Ardı 2-ci səh.

# Prezidentin təşəbbüsü ilə dünyada ilk dəfə yaradılan muzey

**Martın 1-də Bakıda "Suraxanı" tanker-muzeyin açılışı olub. AZƏRTAC xəbər verir ki, dünyada ilk dəfə yaradılan bu muzeyin açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**

Ölkəmizdə gəmiçiliyin inkişafı ilə yanaşı, dənizçilik ənənələrinin qorunması, tarixinin araşdırılıb öyrənilməsi və yaşadılması istiqamətində də bir sıra layihələr həyata keçirilib. Azərbaycanda qədim tarixə malik dənizçiliyin keçmişini, bu gününü və gələcəyini özündə birləşdirən "Suraxanı" tanker-muzeyinin yaradılması dövlət başçısının dəstəyi ilə bu sahədə atılan növbəti mühüm addımdır. Muzey qismində "Suraxanı" tankerinin seçilməsi də təsadüfi deyil. Bu gəmi öz dövrü üçün ən iri və müasir tankerlərdən biri olub. Onun muzeyə çevrilməsi üçün Böyük Britaniya, Niderland, Türkiyə kimi qədim gəmiçilik ənənələri olan ölkələrin təcrübəsindən istifadə olunub. Beləliklə, 2000-dən artıq yerli gəmi təmirçisinin əməyi nəticəsində nadir layihə ərsəyə gəlib.

Ardı 2-ci səh.







# Paşinyan referenduma gedir

## Baş nazir hərbi xuntanı zərərsizləşdirir

Nikol Paşinyanın Onik Qasparyanın ordunun baş qərargah rəisi vəzifəsindən azad edilməsi barədə prezidentə göndərdiyi vəsatət Ermənistanda yeni siyasi gərginlik yaradıb. Bundan sonra Armen Sarkisyanın vəsatəti geri göndərməsi, baş nazirin isə qərarından əl çəkməməsi siyasi böhranı kritik həddə çatdırıb.

### Prezidentə təzyiqlər artır

İndi prezident Paşinyanın yenidən göndərdiyi vəsatəti 3 gün ərzində ya təsdiq etməli, ya da konstitusiya məhkəməsinə müraciət etməlidir. Əks halda Paşinyanın imzaladığı sərəncam layihəsi avtomatik qüvvəyə minəcək.

Ardı 7-ci səh.

# Prezident İlham Əliyev "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"nin yeni inzibati binasının açılışında iştirak edib



Martın 1-də "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti üçün inşa olunan yeni inzibati binanın açılışı olub.

Bax: səh. 3

# Qlobal bəlaya qarşı uğurlu mübarizə

## Peyvəndləmə prosesi mərhələli şəkildə davam edir

Azərbaycanda koronavirus infeksiyasına qarşı hərtərəfli mübarizə aparılır. Pandemiyanın ilk zamanlarından etibarən vəziyyətin nəzarətdə saxlanılması, görülən kompleks tədbirlər, mərhələli şəkildə həyata keçirilən sərtləşdirilmə və ya yumşaldılma tədbirləri müsbət nəticəsini verir. Elə buna görədir ki, ölkəmizdə COVID-19-a yoluxma səviyyəsi nəzarətolunan həddə saxlanılıb, sərt karantin rejimi çərçivəsində bir çox yumşaldılmalar edilib.

Yanvarın 18-dən etibarən bir çox iş yerlərinin fəaliyyəti, fevral ayının 1-dən isə təhsil müəssisələrində mərhələli şəkildə əyani tədris bərpa edilib.

Azərbaycan koronavirusa qarşı peyvəndləməyə erkən başlayan ölkələr sırasındadır. Belə ki, yanvar ayının 18-dən ölkədə vaksinasiyaya start verilib. İlkin mərhələdə tibb işçiləri, növbəti mərhələlərdə isə əhalinin risk qrupuna daxil olan yaşlı təbəqəsi və yaşı 50-dən yuxarı olan insanların peyvəndlənməsi təmin olunub. Vaksinasiya könüllülük prinsipi ilə və dövlət hesabına həyata keçirilir. Ölkəmizdə Çinin "SinoVac" şirkətinin istehsal etdiyi "CoronoVAC" vaksinindən istifadə olunur.

Nazirlər Kabinetinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"nda COVID-19 infeksiyası əleyhinə vaksinasiya ilə əhatə olunan əhali qrupları sosial və tibbi cəhətdən yüksək risk qrupu olaraq ayrılır.

Ardı 7-ci səh.

# Yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi Prezident İlham Əliyevin xüsusi nəzarətindədir







*Əvvəli 1-ci səh.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC yaradılan vaxtdan bu günədək keçən 7 il ərzində 18 yeni gəmi istismara verilib. Son bir ilin pandemiya şəraitində keçdiyini nəzərə alsaq, dövlət başçısının davamlı inkişafa yönələn iqtisadi strategiyasının miqyası daha aydın nəzərə çarpar.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Ro-Pax" tipli "Azərbaycan" gəmi-bərəsinin istismara verilməsi mərasimində iştirak etdilər.

Dövlət başçısına və birinci xanıma "Azərbaycan" gəmi-bərəsi barədə məlumat verildi. Bildirildi ki, nadirliyi ilə seçilən bu layihə çərçivəsində ilk dəfə Xəzərdə yeni "Ro-Pax" tipli gəmi-bərələr istismara veriləcək.

Prezident İlham Əliyev gəmi-bərənin istismara verilməsini bildirən düyməni basdı.

Diqqətə çatdırıldı ki, istismara verilən gəmi-bərə sərnişin, avtomobil və dəmir yolu vaqonları daşıyacaq. Bildirildi ki, 2013-cü ildən bəri donanmanın yenilənməsi istiqamətində aparılan işlər nəticəsində 18 yeni gəmi alınaraq istismara verilib.





Xatırladaq ki, bu gəmilərin hazırlanması, əsasən, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin fəaliyyətindən əldə edilən mənfəət hesabına maliyyələşir. Bununla da yerli bazara sərmayə yatırılmaqla, səhmdarı dövlət olan müəssisə kimi Azərbaycanda yerli gəmi tikintisi sənayesinin inkişafına və yeni iş yerlərinin yaranmasına töhfə verilir.

"Ro-Pax" tipli gəmilərin uzunluğu təxminən 155 metr, eni 18 metr, bortunun hündürlüyü isə 7,5 metrdir. Yükgötürmə qabiliyyətinə görə Xəzərdə hazırda mövcud bərələrdən böyükdür və 100 nəfər sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TIR daşımaq imkanına malikdir. Hazırda Azərbaycan ərazisindən tranzit keçən avtotexnika və vaqonların Xəzər dənizində daşınmasını, ümumilikdə, 13 bərə və 6 "Ro-Ro" tipli gəmilər həyata keçirir. Onların hamısı "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin donanmasına məxsusdur və QSC bu gün Xəzərdə yeganə bərə operatorudur. Beləliklə, "Ro-Pax" tipli gəmi-bərələrin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin mühüm halqası olmaqla, Xəzərin şərq və qərb sahillərindəki dəmir yollarını dəniz üzərində birləşdirəcəyi, Azərbaycanın coğrafi mövqeyindən və tranzit potensialından daha səmərəli istifadəyə xidmət edəcəyi proqnozlaşdırılır.

# Prezidentin təşəbbüsü ilə dünyada ilk dəfə yaradılan muzey





*Əvvəli 1-ci səh.*

Muzeyə gələn ziyarətçiləri kapitan və baş köməkçi qarşılayaraq, onları heyət üzvləri və vəzifələri barədə məlumatlandırırlar. Muzeyin zallarında ən müasir texnoloji həllər tətbiq olunub. Məsələn, oyun manipulyatorları vasitəsilə yanalma əməliyyatını müstəqil şəkildə yerinə yetirmək mümkündür. Həmçinin ziyarətçilər 360 dərəcəli ekranla nümayiş olunan videoda baş verənlərin birbaşa "iştirakçısı"na çevrilirlər.

Muzeydə dünyaca üç məşhur dəniz mayakının modelləri ilə tanış olmaq imkanı da var. Naviqasiya masasında ziyarətçilər Xəzərdə üzən gəmilərin marşrutu, xarici kommunikasiya və naviqasiyaları ilə tanışlıq fürsəti əldə edəcəklər. Burada keçmişə səyahət də mümkündür. Ötən əsrin ortalarına səyahət edən ziyarətçilər gəminin maşın şöbəsində çalışan heyətin gündəlik iş həyatı ilə yaxından tanış olacaqlar. Tanker-muzeyin maraqlı ekspozisiyalarından biri də okean və dənizlərdən yığılan flora və fauna nümunələrinin sərgiləndiyi guşədir.





Tanker-muzeydə həmçinin Böyük Vətən müharibəsi illərində, eləcə də 1990-cı ilin 20 Yanvar hadisələri zamanı Azərbaycan dənizçilərinin qəhrəmanlıq salnaməsi yer alıb. Muzeydə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin inkişafına göstərdiyi misilsiz xidmətləri haqqında interaktiv kitab, Prezident İlham Əliyevin dənizçilik sahəsində həyata keçirdiyi irimiqyaslı layihələri əks etdirən infomonitor var.

Maraqlı eksponatlarla zəngin tanker-muzey postpandemiya dövründə turistlərin ən çox üz tutacağı məkanlardan olacaqdır.

Dövlət başçısına və birinci xanıma fədakar Azərbaycan dənizçilərinin xatirəsinə ucaldılan heykəltəraşlıq kompozisiyası barədə də məlumat verildi.

Bildirildi ki, əsərin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayev, memarı isə Əməkdar memar Elxan Əsədovdur. Heykəltəraşlıq kompozisiyası dinamik fiqurlu dalğanı yaran gəmi pəri ilə təqdim edilib. Bu pər Xəzərdə gəmiçiliyin inkişafını simvolizə etməklə bərabər, həm də dənizçilərin enerji mənbəyi və həyatlarının ayrılmaz atributu kimi yaradılıb.

# Prezident İlham Əliyev “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”nin yeni inzibati binasının açılışında iştirak edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Yeni inzibati bina ilə tanış olan dövlət başçısına məlumat verildi ki, müasir texnoloji sistemlərlə təchiz olunmuş binada beynəlxalq tələblərə cavab verən lokal informasiya texnologiyaları infrastrukturu, videokonfrans və rabitə sistemləri yaradılıb.

Burada ölkəmizdə dənizçilik peşəsinin qədimliyini əyani vasitələr, interaktiv təqdimatlarla ziyarətçilərə çatdıran “Üç əsrin şahidi” adlı muzey də yerləşir. Bu muzeyin yaradılmasında əsas məqsəd Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin üç əsrə şahidlik edən şanlı tarixini bir araya gətirərək nümayiş etdirmək, tarixi eksponat və sənədləri konservasiya etmək və rəqəmsal formata çevirərək gələcək nəsillərə ötürülməsini təmin etməkdən ibarətdir. Binanın inşası zamanı həm eksteryerdə, həm də interyerdə dənizçilik rəmzlərindən geniş istifadə olunub. Binanın bütün otaqlarında səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.






## Şəhid ailələri və müharibə əlilləri ölkə rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olunub

Martın 1-də Milli Məclisin Gənclər və idman komitəsində bir qrup Vətən müharibəsi qəhrəmanı, idmançı və fəal gənclərlə xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq növbəti görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyilə gənclərimizin torpaqlarımızı işğalçılardan azad etməsini tariximizin ən şanlı səhifələrindən biri kimi dəyərləndirib. Bildirib ki, düşmənin aldığı ağır zərbələr nəticəsində kapitulyasiya aktını imzalamağa məcbur olması ölkəmizin gücünü bütün dünyaya göstərdi.

Söhbət zamanı Aprel döyüşlərindən başlayan Zəfər salnaməmizin sonradan Günnüt əməliyyatı, habelə Tovuz rayonunda törədilmiş təxribatın qarşısının alınması ilə davam etməsi, aparılan uğurlu hərbi əməliyyatların məntiqi yekunu olaraq sonda “Dəmir yumruq” hərbi əməliyyatının həyata keçirilməsi barədə danışılıb.

Qeyd olunub ki, bu gün şəhid ailələri və müharibə əlilləri dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunub. Bir neçə gün əvvəl dövlət başçısının 1512 mənzildən ibarət kompleksi şəhid və qazi ailələrinə təqdim etməsi, habelə cari ilin yanvarında imzalanan sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə mənzil şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlilinin evlə təmin edilməsinin əsas prioritet istiqamət olması diqqətə çatdırılıb. Görüşdə şəhid və qazi ailələrinin qayğılarının həlli istiqamətində hər birimizin səfərbər olmasının, eyni zamanda gənc nəslin idmana marağının artırılması ilə onların vətənpərvər ruhda tərbiyə edilməsinin vacibliyi vurğulanıb.



Sonda Vətən müharibəsinin iştirakçılarına, idmançılara və fəal gənclərin bir qisminə Milli Məclisin Gənclər və idman komitəsinin “Fəxri fərmanı” təqdim edilib.

## Azərbaycan ilə Belarus arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Martın 1-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Belarus Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Andrey Ravkov ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən müdafiə naziri Azərbaycan ilə Belarus arasında əməkdaşlığın genişləndirilməsi sahəsində ona uğurlar arzulayıb. General-polkovnik Z.Həsənov Belarusun sabiq müdafiə nazirinin Azərbaycanda səfir təyin edilməsinin ölkələrimiz arasında qarşılıqlı faydalı hərbi və hərbi-texniki əməkdaşlığın daha da inkişaf etdirilməsinə təkan verəcəyinə əminliyini ifadə edib.



Müdafiə naziri Azərbaycanın Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edərək hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın daha da inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb.

Öz növbəsində, səfir ölkəmizdə diplomatik fəaliyyətə başlamasından məmnunluğunu bildirib və Azərbaycan-Belarus münasibətlərinin, xüsusilə hərbi sahədə əlaqələrin inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini qeyd edib.

Müxtəlif sahələrdə münasibətlərin genişləndiyini vurğulayan səfir bildirib ki, Belarus da Azərbaycan ilə hərbi sahədə ikitərəfli əlaqələrin inkişafında maraqlıdır və bunun üçün lazımi potensial mövcuddur.

Müzakirələr zamanı ikitərəfli hərbi əməkdaşlığın və hər iki ölkənin Müdafiə nazirlikləri arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyi qeyd edilib.

## BMT və Azərbaycan hökuməti arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalanıb





Martın 1-də Birləşmiş Millətlər Təşkilatı (BMT) və Azərbaycan hökuməti arasında 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi imzalanıb.

Sənədi Azərbaycan hökuməti adından iqtisadiyyat naziri Mikayıl Cabbarov və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai imzalayıblar.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, uğurlu əməkdaşlıq nəticəsində indiyədək BMT ilə Azərbaycan arasında 4 Çərçivə Sənədi icra edilib. Sənədlərin davamı olaraq “2021-2025-ci illər üçün BMT-Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi”nin hazırlanması ilə bağlı qərar qəbul edilib və sənədin əsas prioritet istiqamətləri müəyyən olunub. Çərçivə sənədi DİM-lərə tam uyğun olmaqla, heç kimin kənarda qalmaması, insan hüquqları, gender bərabərliyi, dayanıqlı inkişaf, davamlılıq və cavabdehlik prinsiplərinə əsaslanır və ərazi bütövlüyünü təmin etmiş ölkəmizin bütün ərazisində inklüziv olmaqla sosial-iqtisadi inkişaf prioritetlərini əhatə edəcəkdir.



İmzalanma mərasimində çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov ölkəmizin BMT-nin müxtəlif ixtisaslaşmış qurumları ilə səmərəli əməkdaşlıq etdiyini, əməkdaşlıq çərçivəsində bir sıra sənədlərin imzalandığını və birgə layihələrin həyata keçirildiyini qeyd edib. Vurğulanıb ki, Çərçivə sənədinin icrası ölkəmizdə DİM-lərin icrasına, aparılan islahatlara və “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in reallaşdırılması istiqamətində layihələrin həyata keçirilməsinə, insan kapitalının inkişafına töhfə verəcəkdir. Nazir işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın reallaşdırılmasında BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın önəmli olduğunu, artıq bu istiqamətdə müvafiq addımların atıldığını diqqətə çatdırıb.

BMT-nin Azərbaycanda rezident əlaqələndiricisi Qulam İshaqzai Çərçivə sənədinin əsas məqsədinin iqtisadiyyatın transformasiyası, əhalinin həssas təbəqələrinin ehtiyaclarının qarşılanmasında, COVID-19 pandemiyasının təsirlərinin minimallaşdırılması və münaqişənin nəticələrinin aradan qaldırılmasında Azərbaycan hökumətinə dəstək göstərilməsi olduğunu qeyd edib, sənədin DİM-lərin icrasının sürətləndirilməsində rolunu vurğulayıb.

İmzalanmadan sonra iqtisadiyyat naziri Mikayıl Cabbarov və BMT-nin rezident əlaqələndiricisi arasında görüş keçirilib, BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlığın genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## Azərbaycanın xarici işlər naziri Özbəkistanın ölkəmizdəki səfiri ilə görüşüb



Martın 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bahrom Aşrafxanov ilə görüşüb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Görüşdə tərəflər bölgədə mövcud olan cari vəziyyət, o cümlədən 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi və digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı perspektivlərini müzakirə ediblər. Ölkələrin iqtisadi-ticarət sahəsində əməkdaşlığının genişləndirilməsi və bu xüsusda Hökumətlərarası İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti iclasının keçirilməsinin əhəmiyyəti, humanitar, mədəni sahələrdə əlaqələrin inkişafı, bölgələrarası əməkdaşlığın genişləndirilməsi, eləcə də yüksəksəviyyəli səfər mübadilələrinin ikitərəfli əməkdaşlığın daha da irəli aparılması baxımından müsbət töhfəsi vurğulanıb.

Dövlətlərin ikitərəfli müstəvi ilə yanaşı, beynəlxalq platformalarda əməkdaşlığı və qarşılıqlı dəstək məsələləri məmnunluqla qeyd olunub.

Görüşdə Azərbaycan və Özbəkistan arasında əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi və genişləndirilməsi üzrə qarşılıqlı razılıq ifadə olunub.

## QDİƏT-in Parlament Məclisinin reqlament üzrə işçi qrupunun iclası keçirilib

Martın 1-də Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) Reqlament üzrə İşçi Qrupunun onlayn formatda iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə Milli Məclisin deputatı, QDİƏT PM sədrinin müavini, qurumda Azərbaycan nümayəndə heyətinin rəhbəri Eldar Quliyev, QDİƏT Parlament Məclisinin baş katibi Asəf Hacıyev və quruma üzv ölkələrin nümayəndələri iştirak ediblər.

QDİƏT PM-in Hüquqi və siyasi məsələlər komitəsinin sədri Mixail Yemelyanovun (Rusiya) sədrlik etdiyi iclasda Rusiya, Bolqarıstan, Yunanıstan və təşkilatın baş katibi Asəf Hacıyev tərəfindən irəli sürülən QDİƏT PM-in Reqlamentinə və Beynəlxalq Katibliyinin Nizamnaməsinə əlavə və dəyişikliklər barədə məsələyə baxılıb.

İclasda çıxış edən QDİƏT PM-in baş katibi Asəf Hacıyev, işçi qrupunun üzvləri Peter Kanev, Violeta İvanov, Anna Purtova, Simeon Kedikoğlu, Cemal Öztürk təklif olunan dəyişikliklər barədə fikirlərini söyləyiblər.

Reqlament üzrə işçi qrup İqtisadi, ticari, texnoloji və ekoloji məsələlər üzrə komitənin bölünməsini, rəhbər vəzifələrin rotasiya müddətinin 1 il azaldılmasını və digər məsələləri əhatə edən 10-a yaxın təklifi dəyərləndirib. Bəzi məsələlərə isə yenidən baxılması, əksəriyyətinin isə Hüquqi və siyasi məsələlər komitəsində müzakirə olunması barədə qərar qəbul edilib.

Bununla da QDİƏT PM-in Reqlament üzrə işçi qrupunun iclası öz işini başa çatdırıb.

# Azərbaycan Prezidenti İlham Əliyevin mətbuat konfransı xarici ölkələrin mediasında geniş işıqlandırılıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı xarici ölkələrin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.



AZƏRTAC xəbər verir ki, xarici KİV-lər dörd saatdan çox davam etmiş mətbuat konfransında Prezident İlham Əliyevin jurnalistlərin suallarını ətraflı şəkildə cavablandırdığını, vacib məsələlərə toxunduğunu, bir sıra önəmli mesajlar verdiyini qeyd ediblər.

Türkiyənin "Anadolu", İHA, "Sputnik Türkiye" xəbər agentliklərində, "Haberler" portalında, "TRT Haber", "Haber Türk", "CNN" "Haber Global", "A Haber", "NTV" telekanallarında, "Yeni şafak", "Hurriyet", "Posta", "Milliyet", "Sabah" qəzetlərində yayılmış məlumatlar "Azərbaycan Prezidenti Əliyev: Azərbaycanda türk Ordusunun kiçik modelini quracağıq", "Əliyevdən Ordumuza böyük qiymət: Azərbaycanda türk ordusunun kiçik modelini quracağıq", "Azərbaycan Prezidenti Əliyevdən Ermənistandakı hərbi çevriliş cəhdi haqqında açıqlama", "Azərbaycan Prezidenti İlham Əliyev: Türk Ordusu bizim üçün ən məqbul modeldir", "Ərdoğan və Əliyevdən Ermənistana mesaj", "Azərbaycan Prezidenti Əliyevdən mühüm açıqlamalar" və s. sərlövhələrlə təqdim edilib.

Rusiyanın "TASS", "Ria Novosti", "İnterfaks", "Vestnik Kavkaza", "Regnum" agentlikləri, "RBK", "RT", "Vesti", "360" telekanalları, "Arqumentı i faktı", "Nezavisimaya qazeta", "Kommersant", "İzvestiya", "Rossiyskaya qazeta", "Vzqlyad" qəzetləri, "Life", "Lenta" saytları Prezident İlham Əliyevin İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərdə görülən quruculuq işləri, Azərbaycanda vaksinasiya prosesi, üçtərəfli Bəyanatın icrası barədə fikirlərini geniş şərh ediblər.

Rumıniyanın "Ultima Ora" (Son saat) qəzeti və "News24hours" xəbər portalı, Yunanıstanın "Real Group Media" şirkəti, Ukraynanın "Obozrevatel", "Podrobnosti", "Stopcor", "Baqnet", "Tsn", "Dialog", "Korrespondent", "Polemika" xəbər portalları Azərbaycan Prezidentinin mətbuat konfransının dünya ictimaiyyətinə önəmli mesajların çatdırılması baxımından mühüm rol oynadığını qeyd ediblər. Materiallarda bildirilir ki, Prezident İlham Əliyev mətbuat konfransında müxtəlif regional məsələlərlə bağlı jurnalistlərin suallarını 4 dildə dəqiq, səlis və məntiqli cavablandırıb. Azərbaycan Prezidentinin güclü və xarizmatik dövlət başçısı və qətiyyətli lider olduğu vurğulanıb.

Çinin milli xəbər agentliyi Sinxua, Çin Mərkəzi Televiziyası və digər media orqanları Prezident İlham Əliyevin mətbuat konfransında vaksin mövzusundakı fikirlərinə geniş yer veriblər. Çin KİV-ləri Azərbaycan Prezidentinin mətbuat konfransında çinli tərəfdaşların vaksin təchizatına dair öhdəliklərini yerinə yetirməsi barədə xoş sözlərini də təqdim ediblər.

Livanın "Al-Masdar News" xəbər saytının, İranın "Mehr" xəbər agentliyinin və "Iran Daily" qəzetinin yaydığı informasiyalarda Prezident İlham Əliyevin mətbuat konfransında bölgədəki mövcud vəziyyət, region ölkələrinin əməkdaşlığı ilə bağlı fikirləri əks olunub.

Qırğızıstanın "Goldenbridgenews" və "Turkeltoday" portalları isə Prezident İlham Əliyevin mətbuat konfransının mətnini tam şəkildə yayıblar.

Gürcüstanın "1tv" kanalı, "Pia", "Kvira" "Imedi News", "For", "Report", "Aktual", "Interpress", "Gaxa", "Marneulifm" saytları dövlətimizin başçısının mətbuat konfransında səsləndirdiyi fikirləri geniş oxucu auditoriyasına çatdırıblar.

* * *

İspandilli mətbuat - İspaniyanın "EFE" agentliyi, "El diario" qəzeti, Dominikan Respublikasının "Diario Libre" qəzeti, eləcə də Türkiyənin "Anadolu", Çinin "Sunxua" agentliklərinin ispan dilində olan versiyaları Prezident İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı ilə bağlı informasiyalar dərc ediblər.

AZƏRTAC xəbər verir ki, informasiyalarda xüsusilə dövlətimizin başçısının İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış vəziyyət, hazırda Ermənistanda gedən proseslərlə bağlı fikirlərinə yer verilib: "Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür. Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış Bəyanat icra edilir və tam icra edilməlidir... Ümid edirəm ki, Ermənistanda yaranmış vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış Bəyanat icra ediləcəkdir. Əks-təqdirdə Ermənistan daha da ağır duruma düşəcək. Yəni Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq".

KİV-lər dövlətimizin başçısının döyüş əməliyyatları başa çatandan dərhal sonra pozucu təxribat-partizan fəaliyyəti cəhdlərinin olması, bu məsələnin, eləcə də dinc vətəndaşların qayıtması məsələsinin necə həll edilməsi ilə bağlı suala cavabından fikirləri də təqdim edib: "Biz əks-terror əməliyyatı apardıq, nəticədə bir neçə terrorçu tamamilə zərərsizləşdirildi, 60-dan çox terrorçu tutuldu. Bu gün onları hərbi əsirlər adlandırmağa çalışırlar. Düşünürəm ki, məsələnin mahiyyətini qəsdən təhrif edirlər. Müharibə bitəndən 20 gün sonra hərbi əsir ola bilməz. Bizdə olan hərbi əsirlərin hamısını qaytarmışıq. Özü də biz onları bizim əsirlərin qaytarılmasından əvvəl qaytarmışıq. Bu adamlar həmin kateqoriyaya uyğun gəlmir. Bunlar terrorçu və təxribatçılardır".

İnformasiyalarda həmçinin Prezident İlham Əliyevin "Əgər hər şey bizim fikirləşdiyimiz kimi gedərsə, hansısa mərhələdə sülh sazişinin də imzalanmasını istisna etmirik. Çünki 10 noyabr tarixli Bəyanat mahiyyətcə elə de-fakto sülh sazişidir" sözləri yer alıb.

Bundan başqa, informasiyalarda 44 günlük Vətən müharibəsindən də bəhs edilib. Azərbaycan Prezidentinə istinadla Dağlıq Qarabağa status verilməsinin heç bir müzakirə obyekti ola bilməyəcəyi qeyd edilib və bu kimi söhbətlərin sülhün bərqərar olmasına əngəl törədə biləcəyi fikri diqqətə çatdırılıb.

Çinin "Sunxua" agentliyinin ispandilli versiyası Prezident İlham Əliyevin vaksin mövzusundakı fikirlərinə geniş yer verib. Agentlik Azərbaycan Prezidentinin mətbuat konfransında çinli tərəfdaşların vaksin təchizatına dair öhdəliklərini yerinə yetirməsi barədə xoş sözlərini də təqdim edib.

* * *

Ukraynanın nüfuzlu "Ukrayna 24" telekanalı Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı və işğaldan azad olunan Ağdam və Füzuli rayonlarından xüsusi reportaj yayımlayıb.

AZƏRTAC xəbər verir ki, reportajda dövlətimizin başçısının Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə uğurlu hərbi əməliyyatları, Ermənistanın diversiya qrupunun törətdiyi cinayətləri, ərazilərin minalardan təmizlənməsi, məcburi köçkünlərin qaytarılması qrafiki, işğaldan azad olunan ərazilərimizin bərpası və yenidən qurulması barədə sitatları yer alıb.

Ukraynalı jurnalist tamaşaçılara Ağdam şəhərindən görüntülərini təqdim edərək tarixi, dini abidələrin, yaşayış binalarının ermənilər tərəfindən necə məhv edildiyini göstərir. Həmin ərazilərdə minalanmış sahələrdən başqa heç nəyin qalmadığını qeyd edir. Reportajda Ağdamdan olan məcburi köçkünlərin ermənilərin törətdiyi vəhşiliklər barədə fikirləri də yer alıb.

Reportajda həmçinin ərazilərin minalardan necə təmizlənməsi barədə görüntülər də yer alıb. Bundan başqa, Füzuli rayonunda beynəlxalq hava limanının inşası barədə məlumat verən ukraynalı jurnalist Azərbaycanın işğaldan azad olunan ərazilərində 3 aeroportun inşa ediləcəyini vurğulayır. Şuşa və Laçına yeni magistral yolun çəkilişləri barədə məlumat verib.

# Azərbaycan nümayəndə heyəti Ankarada Heydər Əliyev Parkını ziyarət edib

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti martın 1-də Ankarada Heydər Əliyev Parkını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, nazir Anar Kərimov Ümummilli Liderin parkdakı abidəsinin önünə əklil qoyub, xatirəsini ehtiramla anıb.

Azərbaycan nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.



# Ankara şəhərində Azərbaycan-Türkiyə birinci birgə Mədəniyyət Komissiyasının iclası keçirilib

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyədə rəsmi səfərdədir.

AZƏRTAC xəbər verir ki, əvvəlcə, Azərbaycan mədəniyyət naziri Anar Kərimov ilə Türkiyə mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy arasında ikitərəfli görüş olub.

Sonra Azərbaycan-Türkiyə birinci birgə Mədəniyyət Komissiyasının iclası keçirilib.

Azərbaycan-Türkiyə birinci birgə Mədəniyyət Komissiyasının iclasının razılaşdırılmış hesabatını Azərbaycan Mədəniyyət Nazirliyi tərəfindən Vasif Eyvazzadə, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən isə Erkin Yılmaz imzalayıblar.

Digər bir əməkdaşlıq sənədi isə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli ilə Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin rəhbəri Serkan Kayalar tərəfindən imzalanıb.

Nazirlər Anar Kərimov və Mehmet Nuri Ersoy mətbuat nümayəndələri qarşısında çıxış ediblər.

Qırx dörd günlük Vətən müharibəsinin rəşadətli zəfəri münasibətilə səmimi təbriklərini çatdıran nazir Mehmet Nuri Ersoy diqqətə çatdırıb ki, Azərbaycan-Türkiyə birinci birgə Mədəniyyət Komissiyasının ilk iclası səmərəli keçib. Əməkdaşlıq əlaqələrini genişləndirmək üçün faydakı müzakirələr apardıq.

Mədəniyyət sahəsində əməkdaşlığı daha da inkişaf etdirmək üçün böyük imkanlar olduğunu diqqətə çatdıran nazir Anar Kərimov bildirib ki, iki qardaş ölkə arasında ikitərəfli formada, həm də beynəlxalq təşkilatlar çərçivəsində mədəniyyət sahəsində geniş əməkdaşlıq imkanları mövcuddur. Ortaq dəyərlərimizə əsaslanan bu əməkdaşlıq dövrün tələbi olmaqla bərabər, tərəflərin maraqlarını tam şəkildə qane edir. Nazir vurğulayıb ki, mədəniyyət mirasımızın qorunması, inkişaf etdirilməsi, kino sahəsində əməkdaşlığımız, kitabxana və incəsənət sahəsində təcrübə mübadiləsinin aparılması bizim üçün çox önəmlidir.

Nazirlər əminliklə diqqətə çatdırıblar ki, bütün sahələrdə olduğu kimi, bundan sonra da mədəniyyətlə bağlı əməkdaşlıqda ortaq fəaliyyət faydalı və səmərəli nəticələr verəcək.

Nazir Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

# Viran edilmiş şəhərlər, dağıdılmış qəbiristanlıqlar, təhqir olunmuş məscidlər - gürcüstanlı jurnalistlər Füzuli və Cəbrayılda





Fevralın 28-də gürcüstanlı jurnalistlər işğaldan azad olunmuş Füzuli və Cəbrayıl rayonlarına səfər ediblər. Səfər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin və Gürcüstandakı səfirliyimizin təşkilatçılığı və dəstəyi ilə təşkil olunub. Gürcüstan heyətinin tərkibinə "Pirveli TV", "Mtavari Arkhi", "Imedi TV", "POS TV" kanallarının jurnalistləri, tarixçi və ekspert daxildir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, media nümayəndələri əvvəlcə Füzuli rayonunun Horadiz kəndində erməni vəhşiliyini lentə alıb, 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən darmadağın edilən Ermənistan silahlı bölmələrinin keçmiş mühəndis-istehkam qurğularına baxıblar.

Gürcüstanlı jurnalistlər sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq tapşırığına əsasən, "Füzuli Beynəlxalq Hava Limanının tikintisi" layihəsi üzrə tikinti işləri həyata keçirilən əraziyə gəliblər. Məlumat verilib ki, Füzuli Beynəlxalq Hava Limanında hazırda uzunluğu 3000 metr olan asfalt-beton örtüklü uçuş-enmə zolağının tikintisi aparılır. Layihəyə əsasən, asfalt-beton örtüklü uçuş-enmə zolağı, yönəldici yol və perronun tikintisi planlaşdırılır.

Media nümayəndələri rayonun Merdinli kəndində ermənilər tərəfindən dağıdılmış qəbiristanlığa və məscid binasının xarabalıqlarına baxıb, ermənilərin məsciddən tövlə kimi istifadə etdiklərinin şahidi olublar. Sonra Füzuli şəhərində ermənilərin 27 il ərzində törətdikləri vandalizmi öz gözləri ilə görüblər. Məlumat verilib ki, ermənilər işğal etdikləri Füzuli şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Rayonda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb.

Jurnalistlər səfər çərçivəsində Cəbrayıl şəhərinin xarabalıqlarına baxıb, şəhər qəbiristanlığında erməni vandalizminin izlərini görüblər. Ermənilər burada mərmərdən olan məzar daşlarını söküb aparıb, bəzi qəbirləri qarət məqsədilə dağıdıblar.

Media nümayəndələri günün sonunda Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gələrək, sakinlərlə söhbət ediblər. Bildirilib ki, Cocuq Mərcanlı kəndi 1993-cü ildə düşmən tərəfindən işğal edilsə də, bir il sonra, yanvarın 6-da uğurlu Horadiz əməliyyatı zamanı azad olunub. Lakin Lələtəpə yüksəkliyi ermənilərin nəzarətində olduğundan burada yaşamaq qeyri-mümkün idi. 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyinin azad olunması mövcud təhlükəni də aradan qaldırdı. Cocuq Mərcanlıda 150 ev, məktəb, uşaq bağçası, məscid və digər sosial binalar tikilib, lazımi infrastruktur yaradılıb. 24 il respublikanın müxtəlif bölgələrində məcburi köçkün kimi məskunlaşmış Cocuq Mərcanlı sakinləri doğma kəndlərinə qayıdıblar. Cocuq Mərcanlı 2020-ci ilin sentyabr-oktyabr aylarında da Ermənistan silahlı bölmələrinin artilleriya atəşinə məruz qalıb.

**Gürcüstanlı ekspert: "Ermənistanın işğalı altında qalmış ərazilərdə Azərbaycan xalqına məxsus hər şey məhv edilib"**

Biz Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər etdik. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan rayonlarında olduq. 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında qalmış bu ərazilərdə daş-daş üstündə qalmayıb, Azərbaycan xalqına məxsus hər şey məhv edilib.

Bunu AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Gürcüstanın Strateji və Beynəlxalq Araşdırmalar Fondunun eksperti Aleksandre Kvaxadze deyib.

A.Kvaxadze bildirib ki, işğal altında qalmış ərazilərdə tarixi abidələr, məscidlər, günbəzlər, qəbiristanlıqlar da dağıdılıb. Məscidlərdə mal-qara, donuz saxlanılıb. Eyni zamanda işğaldan azad edilmiş ərazilər minalanıb. Bu əraziləri minalardan təmizləmək üçün uzun illər lazımdır.

**Gürcüstanlı jurnalist: "İlk dəfədir yox edilmiş şəhərlər görürəm, bu, barbarlıqdır"**

Biz işğaldan azad edilmiş Ağdam və Füzuli şəhərlərində olduq. İlk dəfədir ki, yox edilmiş şəhərlər görürəm. Bu "ruhlar şəhərləri"ndə 30 il müddətində heç kim yaşamayıb. Burada ancaq işğalçı əsgərlər olub. Bu, barbarlıqdır.

Bu sözləri AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə - Füzuli və Cəbrayıla səfər edən Gürcüstanın "Mtavari Arkhi" telekanalının jurnalisti Nani Sisvadze deyib.

Gürcüstanlı jurnalist artıq ikinci dəfədir Qarabağ bölgəsində çəkilişlər etdiyini bildirib: "Telekanalımız Qarabağ savaşı zamanı da burada çəkilişlər edib. Yenə buradayıq. İşğaldan azad edilmiş ərazilərdən xəbərləri, görüntüləri olduğu kimi nümayiş etdirməyimiz Gürcüstan tamaşaçıları üçün önəmlidir. Bu şəhərləri görmək mənim üçün də jurnalist olaraq önəmli təcrübədir", - deyə Nani Sisvadze bildirib.

**Gürcüstanlı tarixçi: "Ermənilər kiminsə dəstəyi olmadan heç vaxt müharibə apara bilməyiblər"**

Ermənilər döyüşməyi bacarmırlar. Onların atıb qaçdıqları müdafiə sistemlərini görəndə buna bir daha əmin oldum. Ermənilər kiminsə dəstəyi olmadan heç vaxt müharibə apara bilməyiblər. Ona görə də döyüş meydanında azərbaycanlılarla təkbətək qalanda arxalarına baxmadan qaçdılar.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bu sözləri Gürcüstanın media nümayəndələri ilə birlikdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə səfər edən tarix elmləri doktoru, Suxumi Dövlət Universitetinin professoru Quram Marxulia jurnalistlərə müsahibəsində deyib.

Gürcüstanlı tarixçi işğaldan azad edilmiş ərazilərlə bağlı təəssüratından danışarkən deyib: "Biz Ağdam şəhərində olduq. Oradakı dağıntılar məndə çox pis təəssüratlar yaratdı. Onlar məsciddə inək, donuz saxlayıblar. Xristianlar heç vaxt bunu etməzlər. Ermənilərin dini, imanı da yoxdur. Qonşusunun ərazisinə iddia edən, yüz minlərlə insanı yurdundan didərgin salan erməniləri Allah cəzalandırdı və Azərbaycan torpaqlarını işğaldan azad etdi. Mən inanıram ki, Azərbaycan dövlətinin iqtisadi gücü qısa müddətdə bu ərazilərdə şəhərləri, kəndləri bərpa etməyə imkan verəcək. Mən bir daha Azərbaycan xalqını böyük qələbə münasibətilə təbrik edirəm. Düşünürəm ki, Gürcüstan və Azərbaycan beynəlxalq müstəvidə azadlıq və müstəqilliklərinin qorunması üçün birlikdə mübarizə aparacaqlar".

# Cənubi Qafqazın qalib dövləti

## Məğlub Ermənistanın isə reallıqla barışmaqdan və üçtərəfli bəyanatların bəndlərini yerinə yetirməkdən başqa yolu yoxdur

*Əvvəli 1-ci səh.*

Çalışın ki, bu reallıqdan özünüz üçün maksimum məqbul variant seçin, yəni pis variantla daha pis variant arasında. Biz isə bildiyiniz kimi, belə çağırışları hər zaman rədd edirdik, öz mövqeyimizdən bir addım belə geri atmırdıq və mən bunu açıq bəyan edirdim. İndi isə mən deyirəm ki, yeni reallıq yaranıb və bu reallığı biz yaratdıq. Bu reallıqla Ermənistan və eyni zamanda bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar".

İlham Əliyevin dünyanın diqqətinə çatdırdığı bir məsələ də vardı: dövlət başçısı həmişə bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan beynəlxalq hüquqa söykənərək işğal olunmuş torpaqlarını güc yolu azad edəcək. Proseslər isə göstərirdi ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək fikrindən çox uzaqdır. Bunu Ermənistanın danışıqlar prosesindəki əsas bəndlər üzrə məsələlərdən müxtəlif bəhanələrlə qaçması, işğal olunmuş ərazilərdə yer adlarını dəyişdirməsi, xarici ölkələrdən erməniləri Dağlıq Qarabağ bölgəsinə cəlb edərək onları qanunsuz məskunlaşdırması aydın şəkildə təsdiq edirdi. Son dövrlərdə isə Ermənistanın hərbi-siyasi təxribatları daha da artmışdı. Paşinyanın keflənib Şuşada yallı getməsi, qondarma rejimin andiçmə mərasiminin Şuşada keçirilməsi, habelə qondarma rejimin "parlamentinin" Şuşaya köçürülməsi göstərirdi ki, Ermənistan danışıqlar prosesində, sadəcə, imitisiya edir. Bütövlükdə, Paşinyanın sərsəmləmələri, Tovuz hadisələri, Azərbaycana diversiya qrupun göndərilməsi və digər təxribatçı əməllər danışıqları mənasız hala gətirmişdi.

Azərbaycan isə illər ərzində danışıqlara paralel olaraq həm də hərbi qüdrətini artırmaqla məşğul oldu. Ordumuzun döyüş imkanları ən müasir silah-sursatlarla gücləndirildi. Yeni nəsil döyüş vasitələri ordumuzun arsenalına cəlb edildi. Xarici himayədarlarına arxalanan Ermənistanın hərbi-siyasi rəhbərliyi elə zənn edirdi ki, istənilən təxribata rəğmən, Azərbaycan müharibə etməyəcək. Erməni ideoloqları düşünürdülər ki, zaman keçdikcə Azərbaycan işğal faktı ilə barışacaq.

Lakin 44 günlük müharibə düşmənin bütün iddialarını alt-üst etdi. Azərbaycan elə havadarlarının gözü önündə Ermənistana tarixinin ən unudulmaz dərsini verdi. Münaqişənin hərbi həllinin olmadığını deyən təşkilat və dövlətlərin gözü önündə İlham Əliyev güc yolu ilə işğal olunmuş torpaqları azad etdi.

### Azərbaycan lider dövlət və söz sahibi kimi mövqelərini daha da möhkəmləndirdi

Artıq Dağlıq Qarabağ problemi yoxdur. Azərbaycanın dəmir yumruğu problemə birdəfəlik son qoydu. Müharibənin başa çatmasından ötən hər bir gün Azərbaycanın şanlı qalibiyyətini dünyaya çatdırır. İndi dövlətimizin prioriteti azad edilmiş ərazilərin bərpasıdır, erməni vəhşiliyinin qurbanı olmuş şəhər və kəndlərimizin yenidən qurulmasıdır. Bu sahədə atılan hər addım, icra olunan hər bir layihə həm də qələbəmizi tərənnüm edir.

Ermənistana gəldikdə isə, müharibənin başa çatmasından ötən hər gün onun məğlub olmuş işğalçı simasını dünyaya tanıdır. Bu ölkə və onun xalqı onilliklər boyu yürüdülmüş işğal siyasətinin qurbanıdır. Ermənistanın bugünkü simasında xəstə erməni təfəkkürünün nəticəsi daha aydın görünür. Erməni cəmiyyətinin aylardır ki, davam edən siyasi burulğandan çıxması, ümumiyyətlə, mümkün görünmür. İqtisadiyyatı elə tənəzzülə uğrayıb ki, nə vaxtsa dirçəlib özünə gələcəyinə heç erməni iqtisadçılarının özləri də inanmırlar.

Bəli, bir tərəfdə müharibədə qalib gələn, torpaqlarını azad edən, ərazilərinin bərpasına başlayan məğrur Azərbaycan, digər tərəfdə isə məğlub olaraq tarixinin ən ağır günlərini yaşamağa məhkum edilən, səfalətə düçar olunan Ermənistan dayanır. Cənubi Qafqazın ən böyük reallığı budur.

Respublikamız illər öncədən Cənubi Qafqazın lideri statusuna sahib olmuşdu. İlham Əliyev Azərbaycanı bölgədə aparıcı dövlətə, dünyada söz sahibinə çevirmişdi. Bu qələbə ilə İlham Əliyev ölkəmizin daşıdığı bütün statuslarını daha da yüksəltdi. Lider dövlət və söz sahibi kimi mövqelərini möhkəmləndirdi, Azərbaycanı daha böyük zirvələrə ucaltdı. İndi Azərbaycan Cənubi Qafqazın həm də qalib dövlətidir.

Ermənistanda məğlubiyyətlə razılaşa bilməyən işğal və terror xislətli dairələr ölkənin imza atdığı kapitulyasiya bəyanatına qarşı çıxır, bundan istifadə edərək hakimiyyəti ələ keçirməyə cəhd edirlər. Aydındır ki, bu ölkədə hakimiyyətdə hansı qüvvə olsaydı, məğlubiyyətə düçar olacaqdı, çünki başqa cür ola da bilməzdi. Ona görə bu gün Ermənistanın kapitulyasiyanın şərtlərini, üçtərəfli Bəyanatda yer almış müddəaları yerinə yetirməkdən başqa yolu yoxdur. Prezident İlham Əliyev bununla bağlı deyib: "Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, 10 noyabr Bəyanatının icrasına mane olmaq cəhdləri bu ölkə üçün çox zərərverici olacaqdır. Mən artıq Prezident Putinin sitatını dilə gətirdim. Bu, onlar üçün suiqəsd olacaqdır, vəziyyət bundan da qat-qat pis olacaqdır".

Məğlub Ermənistanın bu reallıqla barışmaqdan başqa çarəsi yoxdur. Hakimiyyətdə kimin, hansı siyasi qüvvənin olmasına baxmayaraq, kapitulyasiya şərtlərinə əməl etmək rəsmi Yerevanın öhdəliyidir. Əks təqdirdə Azərbaycanın dəmir yumruğunu yenidən dadacaqlar.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# XX əsrin faciəsi - Xocalı soyqırımı



# Xocalıya ədaləti artıq bütün dünya tələb etməlidir

## Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz Xocalı soyqırımının intiqamını döyüş meydanında aldı

Dünya çoxlu qanlı hadisələrə, döyüşlərə, qırğınlara şahidlik edib... Tarix saysız təcavüzkarlar görüb, xeyli işğalları, müharibələri qanlı səhifələrlə yazıb... Amma bu işğalların bir qırmızı xətti, müharibələrin müəyyən qayda-qanunu, döyüşlərin rəhmi olub...

Ermənilərin zaman-zaman azərbaycanlılara qarşı törətdiyi qanlı cinayətlərin, vəhşiliklərin isə Yer üzündə mislibərabəri yoxdur. Elə təkcə Xocalı müsibəti erməni şovinizminin soyqırımı siyasətinin ən dəhşətlisi, insanlığa sığmayan, tarixdə görünməyən terror aksiyasıdır. Xocalı soyqırımı Azərbaycan tarixinin ən qanlı səhifələrindən olmaqla bərabər, bəşər tarixinin də ən genişmiqyaslı və xüsusi amansızlıqla törədilmiş hərbi cinayətlərindəndir...

Soyqırımın canlı şahidlərinin yaşantılarına, tarixi faktlara nəzər saldıqda əminliklə demək olar ki, Xocalı dəhşətinə, müsibətinə bənzər hadisə bu zamana kimi yaşanmayıb. Körpə uşaqlara atəş açılmayıb, diri-diri yandırılmayıb... Hamilə qadının sinəsinə süngü sancılmayıb... Diri-diri insanların dərisi soyulmayıb... Ayağı güclə yer tutan ahıllara zor tətbiq edilməyib... Gənclərin əl-ayaqları bağlanaraq başları kəsilməyib...

Amma bütün bu insanlığa sığmayan vəhşilikləri ermənilər 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda törədiblər.

Üzərindən illər keçsə də, Xocalı hadisələrinin canlı şahidləri erməni terrorçuları tərəfindən törədilən həmin dəhşətlərin qarabasmaları ilə yaşayıblar. Bu faciənin qəlblərində açdığı dərin yaralar sarınsa da, heç vaxt tam sağalmayıb, zaman-zaman qanayıb, onları incidib. Lakin Qarabağın işğaldan azad edilməsi sevinci o sızıldayan yaralara məlhəm oldu. 44 gün ərzində müzəffər ordumuzun çaldığı zəfər 30 illik ağrı-acılara sığal çəkdi. Narahat ruhların hüzur tapmasına vəsilə oldu...

Azərbaycanın Qarabağda qazandığı tarixi qələbə ilə şəhidlərimizin, günahsız insanların, soyqırım qurbanlarının qisası alındı...

### Unudulmayan tarix

Xankəndi şəhərindən 14 km şimal-şərqdə yerləşən Xocalı bir neçə dəfə erməni təcavüzünə məruz qalıb. XX yüzilin əvvəllərində 1905-1906, 1917-1918-ci illərdə bu yaşayış məntəqəsi ermənilərin hücumu nəticəsində yandırılsa da, talan edilib dağıdılsa da, yenidən bərpa olunaraq yaşamını davam etdirib.

1988-ci ilin fevralında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayanda isə onun ilk zərbələrindən biri Xocalıya dəydi. Əvvəl Xocalının Xankəndi, Əsgəran, ermənilər yaşayan digər qəsəbə və kəndlərində işləyən sakinləri işdən çıxartdılar. Bu müddətdə ermənilər kütləvi şəkildə silahlandı, vilayətdə yaşayan azərbaycanlılara divan tutdu, yurd-yuvalarından didərgin saldılar. Öz dədə-baba yurdlarından - Ermənistandan zorla, vəhşiliklə qovulan azərbaycanlıların harayını isə eşidən yox idi. Dağlıq Qarabağda vaxtilə azərbaycanlılar yaşayan 78 kənd vardısa, hadisələr başlayandan sonra orada cəmi beş-on Azərbaycan kəndi qalmışdı. Hələ hadisələrə qədər erməni daşnaklar 230-a yaxın azərbaycanlı evini yandırmış, 200-dən artıq evi isə zəbt etmişdilər.

Xocalı işğal olunmazdan öncə 7 min əhalisi, 3000 min hektardan çox əkin və bağ sahələri, məktəb, kitabxana, mədəniyyət evi var idi. Tarixi Azərbaycan torpaqları olan Ermənistandan qovulmuş 130 azərbaycanlı ailəsi, Fərqanədən didərgin salınmış 40 Axıska türkünün ailəsi də Xocalıya pənah gətirmişdi. Onlara burada torpaq sahəsi ayrılmış, özləri üçün ev tikib şərait yaratmışdılar.

1989-1990-cı illərdə münaqişənin gərginləşdiyi zamanlarda ermənilər Dağlıq Qarabağa, Şuşaya gedən yollarda azərbaycanlılara, o cümlədən də xocalılara məxsus olan maşınları daşa basır, əzir, yandırır, insanları girov götürüb qətlə yetirirdilər. 1991-ci ilin oktyabrında İmarət-Qərvənd (Kərəmli) kəndi erməni silahlı dəstələri tərəfindən yandırıldı, onlarca dinc sakin qətlə yetirildi. Bunun ardınca Tuğ, Xocavənd, Kərkicahan, Cəmilli, Meşəli, Malıbəyli, Quşçular, Qaradağlı kəndləri erməni daşnak ordusu tərəfindən yandırılaraq azərbaycanlı əhaliyə divan tutuldu. 1991-ci ilin oktyabrından 1992-ci ilin fevralına qədər, yəni beş ay müddətində ermənilər Dağlıq Qarabağı azərbaycanlılardan demək olar ki, "təmizlədilər".

Xocalıya ilk irimiqyaslı hücum 1988-ci il sentyabrın 18-də olmuşdu. Həmin gün kənddə toy mərasimi vardı. O toy yasa çevrildi. Xankəndidəki nümayişdən çıxan 5 minə qədər erməninin bir qismi piyada, bir qismi maşınlarla Xocalıya hücum etdi. Xocalının yüzlərlə cəsur oğlu isə onların qarşısına çıxıb əks-hücuma keçdilər. Ermənilər 6 evi yandırdı, çəpərlərə, ot tayalarına od vurdular, sakinləri yaraladılar. Məhz bundan sonra "fağır" erməniləri azərbaycanlıların "hücum"larından qorumaq adı ilə Xocalı şəhərinin sərhədlərində sovet qoşun hissələri - 366-cı motoatıcı alay yerləşdirdilər.

### Günahsız qurbanlar...

4 il mühasirədə yaşayan Xocalı 1991-ci il oktyabrın 30-da tam blokadaya düşdü. O gecə ermənilər Xocalıdan Ağdama gedən "UAZ" markalı avtomobili Əsgəranda vurdular. Maşının içərisində olan bir sərnişin öldü, digəri yaralandı. Elə həmin gecə ermənilər Əsgəran qalasından yolu bağladılar. Və Xocalı əhalisi son günə qədər 4 ay tam mühasirədə yaşadı.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə Xocalıda əsl soyqırımı törədilir. Erməni silahlı dəstələri 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz qalan Xocalıya hücum edirlər. Əvvəl şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunur, sonra isə artilleriya və ağır hərbi texnikadan güclü, amansız atəş açılır, qısa vaxt ərzində şəhərdə yanğın baş verir, hər yer alova bürünür. Şəhərin müdafiəçiləri və yerli əhali ərazini tərk etməyə məcbur olurlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilir. Bir gecənin içərisində qədim Xocalı yerləyeksan edilir.

Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələyir, onlara amansız divan tutur. Əhalinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilir. Soyuq, qarlı fevral gecəsində nə qədər qız-gəlin əsir düşür, girov götürülür. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsa da, çoxu soyuqdan, şaxtadan məhv olur.

Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirilmiş, onlarca meyitin təhqirə məruz qalması faktı aşkar edilmişdi. Ağdamda 181 meyit (130 kişi və 51 qadın, o cümlədən 13 uşaq) məhkəmə-tibbi ekspertizasından keçirilmişdi. Ekspertiza zamanı müəyyənləşdirilmişdi ki, 151 nəfərin ölümünə güllə yaraları, 20 nəfərin ölümünə qəlpə yaraları səbəb olmuş,10 nəfər küt alətlə vurularaq öldürülmüşdü. Hüquq-müdafiə mərkəzi diri adamın baş dərisinin soyulması faktını da qeydə almışdı.

Xocalı sakini Əntiqə erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən diri-diri yandırılmışdı. Digər Xocalı sakini Səriyyə Talıbova danışırdı ki, "4 məshəti türkünün və 3 azərbaycanlının erməni qəbirinin üzərində başını kəsdilər. Sonra daha 2 azərbaycanlının gözlərini çıxartdılar".

Dəhşətli soyqırım nəticəsində 613 nəfər vəhşicəsinə öldürülüb. Onlardan 106-sı qadın və ahıl, 63-ü azyaşlı uşaqlar idi. 8 ailə bütövlükdə qətlə yetirilib, 487 nəfər yaralanıb, 150 nəfər itkin düşüb. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirib. Qəddarlığın ən son həddi isə 1275 nəfər dinc sakinin - qocaların, uşaqların, qadınların əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmasıdır. 150 nəfərin taleyi hələ də məlum deyil. 56 nəfər erməni cinayətkarları tərəfindən xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilib - diri-diri yandırılıb, torpağa basdırılıb, başları kəsilib, üzlərinin dərisi soyulub, körpə uşaqların gözləri çıxarılıb, süngüyə keçirilib, qadınların döşləri kəsilib, hamilələrin qarınları yarılıb, meyitləri təhqir olunub...

### Xocalı həqiqətləri dünyaya çatdırılır

Xocalı faciəsi Azərbaycan və bəşəriyyətin tarixinə ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olub. Həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atıb.

Bu sahədə məqsədyönlü fəaliyyət Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlandı. Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı Soyqırımı Günü haqqında" qərar qəbul etdi, BMT-yə, dünya dövlətlərinə bu qətliamın mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırdı. Heydər Əliyev Xocalı faciəsinin on illiyi münasibətilə müraciətində qeyd edirdi ki, bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil olub: "Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

Bu illər ərzində Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın havadarlarının dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülüb, xarici dillərdə kitablar, sənədlər dərc olunub, soyqırımı müxtəlif təşkilatlarda gündəmə gətirilib. Xocalı soyqırımına aid 6 ölkədə abidə ucaldılıb.

Faciənin dünya miqyasında tanıdılması istiqamətində Heydər Əliyev Fondu tərəfindən görülən işlər xüsusilə təqdirəlayiqdir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası uğurla davam etdirildi. Xocalı soyqırımının dünya miqyasında tanıdılması istiqamətində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiqlənib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də ABŞ-ın 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyiblər.

Milli Məclisin 26 fevral 2002-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı"nda qeyd edilirdi ki, Azərbaycan dövləti mövcud imkanların hamısından yararlanaraq ərazi bütövlüyünün bərpasını təmin edəcək, Xocalı faciəsinin əsl beynəlxalq hüquqi-siyasi qiymət almasına, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılmasına nail olacaq.

### Xocalı soyqırımının qisası alındı

Elə də oldu. Ötən il sentyabrın 27-də Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin komandanlığı ilə 44 günlük Vətən müharibəsi ölkəmizin qələbəsi ilə başa çatdı və Azərbaycan özünün ərazi bütövlüyünü tam təmin etdi. 30 ilə yaxın erməni işğalçılarının tapdağı altında qalan Qarabağımız ordumuzun vətənpərvər, igid oğullarının sayəsində azadlığına qovuşdu.

2020-ci il oktyabrın 7-də Xocalının 2, noyabrın 9-da 4, noyabrın 10-da isə 3 kəndi işğaldan azad edildi.

Xocalı soyqırımının iştirakçısı olan terrorçuların, əli Xocalı faciəsi qurbanlarının qanına bulaşmış erməni vandallarının bir çoxu Vətən müharibəsi zamanı ordumuz tərəfindən məhv edildi. Beləliklə, Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi müzəffər ordu Xocalı soyqırımının qisasını döyüş meydanında aldı. Qisasımız qiyamətə qalmadı!

***Xəyalə MURADLI, "Azərbaycan"***

# "Özünü oda-közə vuran" ana

Xocalı soyqırımında anası, bacısı, bacısının altı yaşlı oğlu, qardaşı şəhid olmuş Nəzakət adlı bir ana da var. Ürəyi Xocalı yarası ilə göynəyən Nəzakət xanım Vətən müharibəsində yüzlərlə əsgərimizə ana əvəzi olub. Yol kənarında dolanışıq üçün təndir çörəyi bişirən Nəzakət Salmanovanı deyirəm.



Sözün əsl mənasında "özünü oda vuraraq" bişirdiyi isti çörəklərini, yeməklərini əsgərlərimizə paylayıb. Səhhəti onu narahat etsə də, müharibə dövründə ordumuzun qələbələrindən ruhlanan ananın ağrı-acısı azalıb, hətta yoxa çıxıb. Əlləri çörək qoxulu ana ömür-gün yoldaşı Ziyəddinlə birlikdə əsl vətəndaşlıq nümunəsi göstərərək arxa cəbhənin dayaqlarından olublar. Goranboy rayonunun Meşəli qəsəbəsində müvəqqəti məskunlaşan arxa cəbhənin qəhrəman ailələrindən biri ilə görüş zamanı Xocalı soyqırımının müsibətlərindən və müzəffər ordumuzun şanlı döyüş günlərində xalq-ordu birliyindən danışdıq.

Xatırladım ki, Salmanova Nəzakət Seydulla qızı 1971-ci ilin güllü-çiçəkli, bəxtəvərli, yaddaqalan bir tarixdə - 1 mayda Xocalı rayonunun Həsənabad kəndində anadan olub. 1989-cu ildə ermənilərin Həsənabada basqınından sonra ailəsi ilə birgə Xocalıya köçüb. 1990-cı ildə Meşəli kənd sakini Ziyəddin Salmanovla ailə həyatı quraraq Meşəli kəndinin gəlini olub. Meşəli kəndinə ermənilər hücum edən zaman yoldaşı onu Xocalıya - ata ocağına gətirib. Lakin Xocalıda da ermənilər dinc əhalini rahat yaşamağa qoymadılar. Vəziyyətin gündən-günə pisləşdiyini görən Ziyəddin hamilə yoldaşını həkim dərdindən axırıncı vertolyotla Ağdama göndərib. Ağdama pənah apardıqdan bir ay sonra gənc ailənin bir oğul övladı olub. Övladlarının adını Emin qoyublar. Ancaq altı aydan sonra hələ ana bətnində ikən Xocalı dəhşətlərini duyan Emini həyatda saxlamaq mümkün olmayıb. Nəzakət Salmanova anasının, bacı-qardaşının, doğmalarının itirməyinin ağrı-acısı ilə dəhşətli günlər yaşayıb...

Xocalı soyqırımında onun anası Roza Mahmudova, bacısı Dilarə Əzimova, bacısının altı yaşlı oğlu Natiq, qardaşı Akif şəhid olublar. İki oğul atası olan qardaşı Akif Xocalıda tikinti-quraşdırma idarəsində qaynaqçı işləyirdi. Balaca Natiqin başına gələn faciədən xəbəri yox idi. Naxçıvanik kəndi ətrafında erməni quldurları onu anası Dilarə ilə birlikdə qətlə yetirdilər. Cəsədi 23 gündən sonra gətirilib Ağdamdakı Şəhidlər xiyabanında torpağa tapşırıldı. Nəzakətin qardaşı Nəsib isə girov aparıldı. O, Xocalı özünümüdafiə batalyonuna yazılmışdı. Nəsib soyqırımı axşamı camaatın şəhərdən çıxarılmasına kömək edirmiş. Yaralanmış anasını Qaraqayaya qədər gətirdikdən sonra bacısının, qardaşının köməyinə qayıdır. Əsgəranın qarşısını kəsən ermənilər onu da Xankəndidən gələn Vidadi, Valeh, Mirzə Allahverdiyev və başqaları ilə birlikdə əsir götürüblər. Əsir götürülən zaman Nəsib əlinin baş barmağından yaralı olub. Erməni quldurları Vidadi ilə Nəsibin başlarını kəsmək məqsədilə erməni qəbirinin üstünə aparıblar. Vidadinin başını orada kəsiblər. Nəsib özü yaralı olduğu üçün ermənilər deyiblər ki, bundan qurban olmaz.

Nəsib 28 gün ağlasığmaz işgəncələr çəkdikdən sonra erməni əsirliyindən azad edilib. Allahverdi Bağırov Nəsibin böyük qardaşı Akiflə dost olduğu üçün onu özü əsirlikdən gətirib.

Ziyəddin Salmanov Meşəli kəndinin işğalından sonra da torpaqlarımızın müdafiəsi uğrunda döyüşlərə qatılıb...

Vətən müharibəsində xalqımız mübarizliyini, döyüşkənliyini düşmənə və bütün dünyaya göstərdi. Şanlı Azərbaycan Ordusunun arxasında qüdrətli xalqımızın olduğunu gördükcə daha da əzmlə, yüksək döyüş ruhu ilə irəli atıldı. Salmanovlar ailəsi də böyük qələbəmizə öz töhfəsini arxa cəbhədəki fədakarlıqları ilə verdi. Onlar tarixə yazıldılar...

***Qalib QULİYEV, Xocalı Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri***

# "Xocalının səsi" 29 ildir ki, xocalılıların müsibətlərini ictimaiyyətə çatdırır

"Xocalıya ədalət!" şüarı altında nəşr edilən "Xocalının səsi" qəzetinin ilk sayı 9 iyul 1991-ci ildə işıq üzü görüb. Düşmən tərəfi həmin ərəfələrdə işğal planları hazırlayırdı. Rayonun rəsmi mətbuat orqanı olan "Xocalının səsi" elə həmin dövrlərdən başlayaraq, real hadisələri olduğu kimi oxucularına çatdırmağa çalışırdı.




Qəzetin baş redaktoru Qalib Bəyməmmədoğlu deyir ki, rəhbəri olduğu mətbuat orqanı hazırda 8 səhifə, 600 tirajla nəşr edilir: "Burada yer alan yazılar sosial şəbəkə hesablarında və xocalininsesi.info saytı vasitəsilə geniş oxucu auditoriyasına çatdırılır. Qəzetin səhifələrində Qarabağ müharibəsinə, erməni vəhşiliklərinə, Xocalı soyqırımına aid mövzularla yanaşı, ümumrayon tədbirləri, respublikada baş verən əlamətdar hadisələr və ölkə Prezidentinin apardığı uğurlu siyasət öz əksini tapır".

"Xocalının səsi" fəaliyyətini bir çox mövzular üzrə davam etdirir: müstəqil dövlətimizin və onun başçısının apardığı daxili və xarici siyasətə sadiqlik, Qarabağ müharibəsinin əsl mahiyyətini açıqlamaq, xalqımızın mübariz əhvali-ruhiyyəsini, monolit birliyini təbliğ etmək, respublikamızda və xocalılıların yığcam şəkildə yaşadığı, daha çox məskunlaşdıqları ərazilərdə baş verən mühüm yenilikləri geniş oxuculara çatdırmaq, daşnakların riyakar əməllərini ifşa etmək, həqiqəti, xalqımızın ədalətli mövqeyini dünyaya çatdırmaq.

Bunlardan başqa, gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasına yardım etmək, yurdundan didərgin salınmış məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində dövlətin yürütdüyü humanitar, sosial siyasəti öz səhifələrində müntəzəm işıqlandırmaq, möhtəşəm Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsində xalqımızın həmrəyliyindən, müzəffər ordumuzun hünərindən, Ali Baş Komandanımızın qətiyyətindən yazılar dərc etmək, şəhidlərimizi, qazilərimizi, Vətən uğrunda canlarından keçən mübarizlərimizin davamçıları kimi tanınan igid oğullarımızı yad etmək, onların şərəfli döyüş yolunu qələmə almaq kimi mühüm məsələlər qəzetin daimi mövzularındandır.

Bütün keçmiş məcburi köçkünlər kimi, xocalılılar da doğma torpaqlarına qayıdacaqlarına əmin idilər. Şükürlər olsun ki, onların da, yurdları işğal olunmuş digər insanların inamları gerçəkləşdirildi. Xalqımızın həmrəyliyi, ordumuzun gücü və Ali Baş Komandanımızın qətiyyətli mövqeyi nəticəsində torpaqlarımızın ərazi bütövlüyü təmin olundu, Vətən müharibəsində Xocalı qatilləri məhv edildi. Bu şanlı Qələbəmizi qəzet də özünün səhifələrində qürur və fəxr hissi ilə işıqlandırır.

"Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyasına töhfə verməyə çalışan qəzetin kollektivinə bundan sonra yeni həyatdan, dinc quruculuqdan, Qarabağın nurlu sabahlarından yazmağı arzulayırıq.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Doğma yurda qayıdacaqları günə hazırlaşırlar

Birinci Qarabağ savaşı zamanı torpaqlarımızın müdafiəsi uğrunda yüzlərlə şəhid vermiş xocalılılar igid oğul və qızlarımızın hünərləri ilə daim fəxr edirlər. Aylarla düşmən mühasirəsində köməksiz qalan şəhər əhalisi mübarizliyi, döyüşkənliyi ilə torpağa nə qədər bağlı olduqlarını göstərdilər.



1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni quldurları sovet ordusunun 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən etnik azərbaycanlılara qarşı soyqırımı törətdilər. Ancaq xocalılılar düşmən önündə əyilmədi, sona qədər mərdliklə mübarizə apardılar. Baxmayaraq ki, mənfur düşmən Xocalını yer üzündən sildi, lakin xocalılıları sonuncu nəfərinə kimi məhv etməyi bacarmadı. Bu gün xocalılılar erməni vandalizminin ifşasında var qüvvələri ilə iştirak edirlər. Xocalılılar da "dəmir yumruq"la düşmən başına ağır zərbə endirənlərin sırasında öz sözlərini dedilər, qisaslarının alınmasında güclərini və vətənpərvərliklərini göstərdilər.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi 30 ilə yaxın düşmən tapdağı altında inildəyən torpaqlarımızın həsrətilə yaşayan, səbri tükənmiş bir xalqın ən böyük arzusu, müqəddəs haqq savaşı oldu. Bu haqq savaşının sonunda qələbə qazanan müzəffər Azərbaycan Ordusu öz gücü, məharəti ilə bütün dünyanı heyran etdi. Vətən müharibəsində şəhidlərimiz, qazilərimiz bizim yenilməzlik, qəhrəmanlıq simvolumuza çevrildilər. Məhz onların sayəsində qələbə sevincini, qürurunu yaşayırıq.

Xocalı da neçə-neçə qəhrəmanlar, mərd oğullar yetişdirib. Öz dədə-baba torpağını görməyən gənclər qəhrəman oğullarımızın döyüş yolundan ilhamlanaraq Vətən müharibəsinə könüllü yazıldılar. Vətənpərvər oğullarımız torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda, həm də şəhidlərimizin qisasını almaq məqsədilə döyüşlərə qatıldılar, öz şücaətlərini göstərdilər. Aprel döyüşlərində olduğu kimi, Vətən müharibəsində də Xocalı rayonundan olan döyüşçülər şəhidlik mərtəbəsinə ucaldılar. Bu müharibədə şəhidlik mərtəbəsinə ucalan səkkiz xocalı övladının (Sənan Miriyev, Xəqani Nəsirov, Tural Abdullayev, Nicat Əhmədov, Əlizamin Ramazanlı, Elnur Məmmədov, Ceyhun Mustafazadə, Namiq Cavadov) da məzarı müqəddəs ziyarət yerimizə çevrildi. 44 günlük müharibədə Xocalı rayonundan da xeyli qazimiz oldu.

Xocalı soyqırımından 29 il ötsə də, yarası heç vaxt qaysaqlanmır, ağrısı-acısı səngimir, soyqırımın müsibətləri daim ürəkləri parçalayır. Fevral ayı gələndə xocalılılar üçün sanki həmin müsibətli günlər yenidən qayıdır. Ancaq Vətən müharibəsində şanlı ordumuzun düşmən üzərində qələbəsindən və Xocalı qatillərinin məhvindən sonra hər bir kəsin üzünə sevinc, qəlbinə fərəh gəldi. Xocalı müsibəti yalnız Xocalıya qayıdarkən səngiyə, şəhidlərimizin ruhu o zaman şad ola bilər. Biz bu amalla daim dövlətimizə, ölkə rəhbərinə sadiq olmuşuq. İnamımız, müqəddəs arzumuz gerçəkləşir. Zəfər günündə bəşər tarixində ən ağır faciəni yaşamış xocalılıların ilk ziyarət yeri şəhidlərimizin ruhlarının əbədiləşdirilməsi üçün ucaldılmış abidələr oldu. Hər dəfə faciəmizi yad etmək üçün getdiyimiz abidələr önünə bu dəfə həm də qələbə müjdəsini çatdırmaq üçün tələsdik. Artıq xocalılılar Xocalıya qayıdacaqları günə hazırlaşırlar.

***Bəyməmməd QULİYEV, Xocalı rayonunun Kosalar kənd sakini, təqaüdçü müəllim***




# Novruzun ikinci çərşənbəsi

Od ta qədimdən bəşər övladlarının həyatında mühüm əhəmiyyət kəsb edib. İnsanlar odu kəşf etdikdən sonra onun köməyi ilə həm vəhşi heyvanların hücumundan qorunub, həm soyuqdan, donmaqdan xilas olub, həm də məişətdə istifadə ediblər. Odur ki, odu, işığı hər zaman müqəddəs biliblər. Bəşərin ilk övladları istilik, sağlamlıq bəxş edən Günəşin, odun, ocağın həm də onları şər qüvvələrdən qoruduğuna, xeyirin qələbəsinə inanıblar.

## Birliyin, bərabərliyin rəmzi...

Od-ocaq qədimdən insanları yaşadığı yerə, yurda, obaya bağlayıb. Ulularımız odun istiliyini, ocağın işığını varlığın, ümidin, xoşbəxtliyin, birliyin, bərabərliyin rəmzi sayıblar. Oda sitayiş edib, şərəfinə şənliklər keçiriblər. Əcdadlarımızın ocaq qarşısında səcdəyə duraraq oyun və ayinlər təşkil etdikləri bir sıra mənbələrdə də əksini tapıb. Qobustan qayaüstü rəsmlərindəki ocaq ətrafında "yallı" gedən insan təsvirləri buna misaldır.

Təsadüfi deyil ki, əcdadlarımızın ən qədim andı od-ocaqla, Günəşlə bağlı olub: "Od haqqı", "Gün haqqı", "İşığa and olsun!", "Çıraq haqqı!" deyə and içiblər. İnanıblar ki, "Odu su ilə söndürmək olmaz". Yaxşı olmağını arzuladıqları insana alqış ediblər: "Ocağın sönməsin", deyiblər.

Qədim türk xalqları dağ başında qaladıqları tonqalla həm hisslərini ifadə edib, həm də bir-birlərinə xəbərlər ötürüblər. Onlar hündür yerlərdə, dağ başında qalanan tonqalın sayına görə sevincli, şad vaxtlarında şənlənməyə, dar günlərində, düşmənin hücumu zamanı müdafiə olunmağa toplaşmaq üçün işarə veriblər. Uzaq məsafələrdən bu odu, ocağı görən dostları, soydaşları həmin obanın, elin vəziyyətini təyin edə bilib, köməyə gediblər.

Odun müqəddəsliyinə inam onun yaradılışın mərhələlərini əks etdirən dörd ünsürdən biri olması düşüncəsindən də irəli gəlir. Tədqiqatçılar Novruz bayramına qədərki dörd çərşənbəni bu dörd ünsürlə - su, od, yel və torpaqla əlaqələndirirlər. Bu baxımdan bayram çərşənbələrindən ikincisi Od çərşənbəsi kimi qeyd olunur.

Xalq arasında Od çərşənbəsi Üskü çərşənbə, Üskü gecəsi, Adlı çərşənbə, Ocaq çərşənbəsi, Ataş çərşənbə, Xıs çərşənbə, Xızır çərşənbə də adlandırılır.

Mahiyyətində odun müqəddəs sayılması ifadə olunan Od çərşənbəsi özünəməxsus mərasimlərlə zəngindir. Bu çərşənbədə tonqal qalama mərasimi Novruz bayramının digər çərşənbələrindən daha möhtəşəm keçirilir. Elə yer seçilir ki, qalanan tonqal hər tərəfdən görünsün. Bunun üçün qədim zamanlarda Od çərşənbəsində tonqalı hündür yerdə - dağ, təpə başında yandırırdılar. Ellikcə tonqalın başına toplaşırdılar. Qız-gəlinlər odun şərəfinə nəğmələr oxuyurdular.

Adətən, çərşənbə tonqalı yaş ağacdan qalanmır. Əcdadlarımız inanırdılar ki, yaş və acı tüstülü ağacdan tonqal qalayan adama sədəmə toxuna bilər. Tonqal quru odun, kolkos və ya çırpıdan, tikan və təmiz ağac budaqlarından hazırlanmalı idi. Tədqiqatçılar qeyd ediblər ki, qədimdə insanlar şər qüvvələrin qaratikanın batmasından qorxub tonqala yaxın gəlmədiklərinə inanırdılar. Araşdırmalarda bildirilib ki, bəzi bölgələrdə tonqala üzərlik də atar, bununla bədnəzərdən qorunacaqlarına inanırdılar.


Foto İlham BABAYEVİNDİR

## Odun gücü...

El arasında yayılan adət-ənənəyə görə, Od çərşənbəsində tonqal qalayıb, üç dəfə "Ağırlığım, azarım-bezarım odda yansın" deyə-deyə odun üstündən tullanır, inanırlar ki, bununla azar-bezarları yandırır, xəstəliklərdən xilas olurlar.

Novruzun ikinci çərşənbəsində tonqalın yandırılması da gələn yeni ilin isti, bərəkətli keçməsinə işarədir.

Od çərşənbəsində ailə üzvlərinin adına şamlar yandırılır. Bəzi bölgələrdə ölənlərin ruhu üçün bir şam ayrılır. Keçmişdə bu çərşənbədə qohum-qonşuların yasda olan ailənin həyətinə gedib tonqal yandırmaları bununla həmin ailəni yasdan çıxarmaq mənasını ifadə edib.

İnanca görə, od qara qüvvələri məhv etmək gücündədir. Od çərşənbəsində bayram tonqalının həyət darvazasının ağzında qalanması da bu düşüncədən irəli gəlib. Bunu həyətə gələnlərin özləri ilə pis niyyət, ağırlıq gətirə bilməmələri üçün ediblər.

İlin bərəkətli olması üçün Od çərşənbəsində də digər üç çərşənbədə olduğu kimi, bayram süfrəsi açılır. Xörəklər bişirilir, plov dəmlənir. Süfrəyə şirniyyatlarla dolu xonçalar qoyulur.

Qədimdən Od çərşənbəsində müxtəlif ayin və mərasimlər keçirilib. Onlardan biri də günəşi çağırmaq, istiliyin olması üçün icra edilən "Qodu-qodu" oyunudur. Günəşi çağırmaq üçün insanlar "Qodu-qodu" mahnısı oxuyaraq ondan istilik diləyirlər. Kənd cavanları üzərini qırmızı bəzədilmiş çömçəni Günəşin rəmzi kimi götürüb qapı-qapı gəzirlər. Mərasim zamanı bu nəğməni oxuyub evlərdən bayram paylarını alırlar:

*Qodu-qodunu gördünmü?*
*Qoduya salam verdinmi?*
*Qodu burdan ötəndə*
*Qırmızı günü gördünmü?*

*Qoduya qaymaq gərək,*
*Qablara yaymaq gərək,*
*Qodu gün çıxarmasa,*
*Gözlərin oymaq gərək.*

*Yağ verin yağlamağa,*
*Bal verin ballamağa,*
*Qodu gülmək istəyir.*
*Qoymayın ağlamağa.*

Boz ay ömrünü yarılayan Od çərşənbəsindən sonra bütün canlılar yazın gəlişini hiss etməyə başlayır, ümidlə yazın gəlişini gözləyirlər.

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**





Ədəbi simalar

# Ustad yazıçı, müdrik şəxsiyyət

Xalq yazıçısı Əli Vəliyev Azərbaycanın qədim Zəngəzur qəzasının Ağudi kəndində anadan olub, bu kənddəki 3 sinifli rus məktəbini, Şuşa firqə, ardınca Bakı mərkəzi firqə məktəblərini bitirib. Müxtəlif məsul vəzifələrdə çalışıb, həm də təhsilini davam etdirərək Azərbaycan Dövlət Darülfününü (APİ) bitirib. "Şərq qapısı" qəzetinin redaktoru, bir sıra rayonların partiya və icraiyyə komitələrində, Yazıçılar İttifaqında, İncəsənət İşçiləri İttifaqında rəhbər vəzifələrdə çalışıb. Azərbaycan KP MK-nın orqanı olan "Kommunist" qəzetinin, "Azərbaycan" jurnalının baş redaktoru, Yazıçılar İttifaqının katibi olub.



Əli Vəliyev 2 fevral 1983-cü ildə vəfat edib, I Fəxri xiyabanda dəfn olunub. Bu il görkəmli ədibin anadan olmasının 120 illiyi qeyd edilir.

O, ədəbi yaradıcılığa gənc yaşlarından başlayıb, 1920-ci illərdən qəzet və jurnallarda hekayələri dərc olunub, 1930-cu ildə "Allahın səyahəti" və "Nənəmin cəhrəsi", sonra "Qarlı dağlar", "Qəhrəman", "Ordenli çoban" və "Sübut" kitabları nəşr edilib. Böyük Vətən müharibəsi cəbhələrinə könüllü yollanıb, tanınmış yazıçı-jurnalist həm də ön cəbhədə iştirak etdiyi, şahidi olduğu döyüşlər, əsgərlərimizin qəhrəmanlığı haqqında silsilə məqalələr yazıb, "Cəbhə hekayələri", "Ərköyün", "Sovqat" kitablarını nəşr etdirib.

1945-1950-ci illərdə "Gülşən" povesti və "Hekayələr" kitabları işıq üzü görüb, 1958-ci ildə "Gülşən" povesti və "Çiçəkli" romanı M.F.Axundov adına respublika Dövlət Mükafatına layiq görülüb. Bu və digər əsərləri Azərbaycan, rus, Ukrayna və digər dillərdə çıxıb. 1950-1970-ci illərdə yazıçının "Madarın dastanı", "Ürək dostları", "Seçilmiş əsərləri"nin I-VI cildləri (Azərnəşr - 1968, 12 000 nüsxə), əziz dostu, görkəmli söz ustası Süleyman Rəhimovun anadan olmasının 60 illiyinə həsr edilmiş "Xalq yazıçısı" monoqrafiyası, "Turaclıya gedən yol", "Budağın xatirələri" (Azərbaycan və rus dillərində) romanları, "Zəngəzur qartalları", "Bir cüt tərlan" povestləri, "Uşaqlara sovqat", "Əziz nəvələrimə", "Anaqız", "Bir cüt ulduz", "Samovar tüstülənir", Gəncliyimi tapdım", "Durna qatarı" povest, hekayə, oçerk kitabları nəşr edilib. 1970-ci illərdə 2 kitabdan ibarət məşhur "Budağın xatirələri" romanı, "Yeni həyat" hekayələr kitabı, "Zamanın ulduzları", "İstedad" (rus dilində), 1980-ci illərdə "Qarabağda qalan izlər", "Narahat adam", "Turaclıya gedən yol" (3-cü nəşri) romanları, "Qənirsiz gözəl", "Zamanın ulduzları" (rus dilində) povest və hekayə kitabları kütləvi tirajlarla nəşr edilib, saf, halal zəhmətlə dolanan, ad-san qazanan əmək adamları haqqında məqalələri dövrü mətbuatda yayımlanıb.

1950-ci ildə yazdığı "Gülşən" povestinin motivləri əsasında S.Hacıbəyovun bəstələdiyi eyniadlı balet Azərbaycan Opera və Balet Teatrının, 1953-cü ildə isə Ə.Nəvai adına Daşkənd Böyük Teatrının səhnəsində tamaşaya qoyulub. 1952-ci ildə əsər SSRİ Dövlət mükafatına layiq görülüb. Xalq yazıçısı, Lenin, "Qırmızı Əmək Bayrağı", "Oktyabr İnqilabı", "Şərəf nişanı" ordenləri və SSRİ Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilib. Haqqında sənədli film çəkilib, monoqrafiyalar, məqalələr yazılıb.

Azərbaycan ədəbiyyatının çox sayda nümayəndələri - Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rəhimov, Süleyman Rüstəm, Məmməd Rahim və başqaları Əli Vəliyev haqqında ədəbiyyatımızın, publisistika və jurnalistikamızın görkəmli, ən nüfuzlu, mötəbər, nüfuzlu təmsilçilərindən, Azərbaycan sovet nəsrinin yaradıcılarından biri kimi bəhs ediblər. Əli Vəliyev əsərlərinin dilinin zənginliyi, rəvanlığı, xalq danışığından bəhrələnən şirin sadəliyi, həm də şəxsiyyətindən doğan səmimiyyəti onu dövrünün ən çox nəşr edilən, oxunan, sevilən yazıçılarından biri edib. Janrından asılı olmayaraq, onun yazılarından torpaq, çörək ətri, hallalıq qoxusu gəlir. İstedad və zəhmətin bəhrəsi olan yaradıcılığı ilə Əli Vəliyev Azərbaycan ədəbiyyatının inkişafına, nəsr dilinin zənginləşməsinə özünəməxsus mühüm töhfələr verib.

"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 12 yanvar 2004-cü il sərəncamında Əli Vəliyevin "Seçilmiş əsərləri"nin də nəşri nəzərdə tutulmuşdu. Görkəmli ədəbiyyatşünas, ədəbi tənqidin patriarxı, akademik Məmməd Arifin bu nəşrə (Avrasiya Press-2005) daxil edilmiş "Şərəfli ömür" başlıqlı məqaləsində ədibin xalq həyatının, kəndin təbii gözəlliklərinin, əməkçi insanların xalqın rifahına xidmətlə yoğrulan yaşayışının, yeni cəmiyyət quruculuğunun, insan təbiətinin, psixologiyasının mahir bilicisi olduğunu və çox inandırıcı, təbii əks etdirdiyini vurğulayaraq yazır: "Əli Vəliyev əsl ali məktəbi-universiteti canlı həyatın özündə keçmişdir".

Əli Vəliyevə həm ədəbi aləmdə, həm də sadə xalq arasında böyük hörmət qazandıran başqa səbəb də var, bu da onun təbiətindən, doğulub böyüdüyü, göz açıb ilk gördüyü vüqarlı dağların əzəmətindən, suyunun, havasının təmizliyindən örnək alan mərdliyi, dostluqda, duz-çörəkdə sədaqəti, çətin günlərdə özünü irəli verməyi, xeyirxahlığı, yaxşılıq etməkdən yorulmadan zövq almağı idi. Səbail rayonunda icraiyyə komitəsində çalışarkən çox sayda yazara növbədənkənar mənzil verdiyi üçün problemlər yaşamışdı. Çoxlu qələm adamının-Qasım Qasımzadə, Bayram Bayramov, Zəlimxan Yaqub, Famil Mehdi, Cəlal Bərgüşad, Qulu Xəlilov, Elbrus Şahmar və başqalarının xatirələrində onun yazıçılığı ilə bərabər, dara düşənlərə, elçilikdən əliboş dönənlərə xeyirxah köməyindən, özünü irəli verib müşkül işlərə əncam çəkməyindən, müdrik ağsaqqallığından yaddaqalan, ibrətamiz detallar var. Təbiət uca boyu ona həm də şümal qədd-qamətini sonadək dik saxlamaq üçün vermişdi. Azərbaycan sovet yazıçıları arasında Sovet-KQB rejiminin çətin sınaqlarından alnıaçıq, üzüağ çıxanlardan, mənliyini, qürurunu uca tutub, təmiz saxlayanlardan biri Əli Vəliyev olub.

1981-1982-ci illərdə Qubadlı rayon komsomol komitəsində işləyirdim, oturaq yerimiz də rayon partiya komitəsinin binasının I mərtəbəsi idi. Rayon mədəniyyət evində, mıəktəb, kənd klublarında öz iştirakı ilə 80 illik yubileyini, görüşlərini keçirmişdik. Bu binaya hər gəlişində rayon rəhbərləri ilə görüşürdü, buradan yaxın-uzaq kəndlərə camaatın görüşünə, əkin-biçinlə məşğul olan sadə insanlarla canlı ünsiyyətə gedirdi və hər dəfə də xeyli adam Əli müəllimin - "Alı dayı, Alı əmi"nın rayona gələcəyi vaxtı öyrənib səbirsizliklə yolunu gözləyirdi, ya da qaldığı Mahmudlu kəndinə (vəfalı ömür-gün yoldaşı, əsil-nəcabətli, duz-çörəkli mehriban Qumru nənəni bu kənddə görüb bəyənib özünə ömürlük yol yoldaşı etmişdi) gedirdi; paytaxtda işsiz, evsiz qalan, təyinat ala bilməyən, ya həbsə düşən doğmalarına yardımçı olmaq xahişi ilə ərizələr, məktublar verirdilər, hamıda da ümid, inam var idi ki, Əli müəllim heç bir xahişi boşuna buraxmaycaq, nədəsə kömək edəcək. Elə də olurdu. Qubadlıya hər gəlişində də mütləq doğulub uşaqlıq illərini keçirdiyi doğma kəndinə gedər, dünyadan köçənlərin evlərinə baş çəkib başsağlığı verər, qınına çəkilib kin-küdurətini, namərd xislətini gizlədib fürsət gözləyən yağıların diş qıcadığı bu ellərdəki çoxsaylı doğmalarına qonaq olar, dərdlərini, problemlərini öyrənib qələmə alar, ölkə və ittifaq rəhbərliyinin nəzərdiqqətinə çatdırar, həssasiyyətlə Bakıda əncam çəkməyə çalışardı. O, mərhum akademik Həsən Əliyevlə birlikdə Zəngəzur camaatının sözü ötkün mötəbər ağsaqqallarından sayılırdı.

Ümummilli Lider Heydər Əliyevin Əli Vəliyevə xüsusi hörməti var idi. Naxçıvan MSSR-in 50 illik yubileyində Moskva, İrəvan, o cümlədən Sisiandan və digər respublikalardan nümayəndələr iştirak edir, təbrik nitqləri söyləyirdilər. Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev son sözündə Sisian rayon pariya komitəsinin I katibinə üzünü tutub deyir:

- Bayaq sən Zəngəzur, Sisianda doğulan xeyli tanınmış insanların sırasında Əli Vəliyevin də adını çəkdin. Sən onun "Budağın xatirələri" kitabını tap oxu, saydığın o adamların Sisianda həyatın çoxlu ağrı-acıları, sərt imtahanları ilə üzləşdiyini aydın göstərib, yaşamaq, oxumaq arzusu ilə Azərbaycana üz tutub orada dediyiniz kimi şan-şöhrətə yüksəldiyi barədə ətraflı yazılıb.

Ümummilli Lider Heydər Əliyevin bu sözlərində böyük həqiqət var: Əli Vəliyev həyatında görüb yaşadıqlarını avtobioqrafik səciyyəli "Budağın xatirələri"ndə o qədər bədii ustalıqla, həssas duyğularla qələmə alıb ki, təkcə bu əsərlə də Azərbaycan ədəbiyyatında əbədilik qala bilərdi; bu kitab zəngəzurluların timsalında bədnam qonşularımızın xalqımızın başına gətirdiyi faciələrin bədii, tarixi salnaməsidir, Zəngəzurun bənzərsiz təbiətinin, coğrafiyasının, yer-yurd adlarının - toponomikasının mükəmməl ensiklopediyasıdır, bugünkü, gələcək nəsillər üçün yaddaş kitabıdır, müdrik ağsaqqal öyüdüdür, həm də ağır müsibətlər görüb yaşamış müəllifin daxili mənəvi zənginliyini, bənzərsiz ədəbi istedadını dəyərləndirmək baxımından unikal mənbə, ədəbi söz abidəsidir.

Əli Vəliyev təkcə yazıb yaratdıqları ilə deyil, həm də fiziki-mənəvi varisləri ilə də özündən sonra xalqımıza dəyərli töhfələr bəxş edib. 44 yaşında həyatdan köçmüş Məsud Əlioğlu filologiya elmləri doktoru, professor, Azərbaycanın ən intellektli, novator ruhlu tənqidçi, ədəbiyyatşünaslarından biri idi, nəvəsi, Xalq yazıçısı Afaq Məsud Əli Vəliyev ocağının ləyaqətli davamçısı olaraq, həm şəxsi yaradıcılığı ilə, həm də dövlət əhəmiyyətli bir qurumun rəhbəri kimi milli ədəbi-bədii fikrimizin zənginləşməsində, dünyaya tanıdılmasında xalqımıza, vətənimizə sanballı xidmətlər göstərməkdədir.

**Hacı NƏRİMANOĞLU,**
**tarix üzrə fəlsəfə doktoru**

# Tovuzlu gənclər Vətənə məhəbbət, dövlətçiliyimizə sədaqət nümunəsi göstərirlər



Ermənistanla sərhəddə yerləşən Tovuz rayonunda gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinə ciddi diqqət yetirilir. Bu istiqamətdə müntəzəm olaraq müxtəlif tədbirlər həyata keçirilir. Elə rayon icra hakimiyyəti yanında Gənclərin Məşvərət Şurasının yardılması da bu məqsədə xidmət edir. Məşvərət Şurasının bu günlər keçirilən görüşündə rayon gənclərinin fədakarlığından söhbət açılmış, bu, ölkəmizdə aparılan gənclər siyasətinin uğurları kimi dəyərləndirilmişdir.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədovun və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri Azər Əliyevin iştirak etdikləri onlayn formatında keçirilən görüşdə qeyd edilmişdir ki, Azərbaycan dövlətçiliyinin mühüm tərkib hissələrindən biri də dövlət gənclər siyasətidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir, siyasi, iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Hazırda gənclərlə bağlı 2017-2021-ci illəri əhatə edən dövlət proqramı həyata keçirilir. Bundan başqa, 2015-ci ildə "Azərbaycan Gənclərinin İnkişafı Strategiyası" qəbul olunmuşdur. Əsas məqsəd gənclərimizin potensialından ölkəmizin mənafeyi naminə istifadə etmək və fəal vətəndaşlıq mövqeyinə malik yeni nəsil formalaşdırmaqdır.

Daha sonra bildirilmişdir ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən cox böyük uğurla davam etdirilməsi Azərbaycan gəncliyinin inkişafına sanballı təkan vermişdir. Məhz cənab Prezidentin rəhbərliyi və birinci Vitse-prezident Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə həyata keçirilən davamlı tədbirlər, icra olunan layihələr gənclərimizin özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır.

Vurğulanmışdır ki, gənclərimizin vətənpərvər ruhda tərbiyə olunması, onlarda Vətənə məhəbbət, dövlətçiliyimizə sədaqət hisslərinin aşılanması öncə 2020-ci ilin iyul ayında düşmənin dövlət sərhədinin Tovuz rayonu istiqamətində yaratdığı təxribatın qarşısının alınmasında, bundan sonra isə sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində özünü tam sübut etdi. Rəşadətli Azərbaycan Ordusunun sıralarında hərbi xidmət keçən gənclərimiz Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması, əzəli torpaqlarımızın işğaldan azad olunması və tarixi Qələbəmizin əldə olunmasında cəsurluq, igidlik və yenilməzlik nümunəsi göstərdilər. Azərbaycanın əldə etdiyi bu zəfər Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı Azərbaycan Ordusunun adı ilə bağlıdır. Təbii ki, bu qələbədə Azərbaycan gəncliyinin xüsusi yeri və rolu vardır. Torpaqlarımızın düşmən tapdağından azad olunması uğrunda gedən döyüşlərdə şanlı Azərbaycan Ordusunun sıralarında tovuzlu gənclər də döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirmişlər.

Görüşdə həmçinin qeyd edilmişdir ki, rayon icra hakimiyyəti yanında Gənclərin Məşvərət Şurasının üzvləri pandemiya dövründə də rayon gəncləri arasında maarifləndirici tədbirlər həyata keçirmişlər.

**Sabir ƏLİYEV,**
**"Azərbaycan"**

# Sumqayıtlı gənclər yenə öndədir



Sumqayıt Gənclər və İdman Baş İdarəsi şəhərin müxtəlif sahələrində fəaliyyət göstərən təşkilatları ilə ötən il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə həsr edilən Zoom platformasında görüş keçirib.

Tədbirdə çıxış edən idarənin rəisi Elgün Hümbətov bildirib ki, "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələr Sumqayıtda da uğurla həyata keçirilir. Gənclərin vətənpərvərlik və vətəndaşlıq tərbiyəsinin gücləndirilməsi, elm, təhsil, mədəniyyət və incəsənət sahələrində yaradıcı və istedadlı gənclərin üzə çıxarılması, onlara dövlət qayğısının artırılması istiqamətində görülən işlər davam etdirilib, "Könüllülər ili" çərçivəsində çoxsaylı tədbirlər reallaşdırılıb.

Bildirilib ki, COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində baş idarənin təşkilatçılığı ilə keçirilən maarifləndirmə işlərində könüllülər fəallıq nümayiş etdiriblər. Sərt karantin günlərində könüllülər ahıl insanlara yardım etmiş, onların qarşılaşdıqları problemləri həll etmişlər. Sumqayıtlı gənclər könüllülük fəaliyyətinin ən parlaq nümunəsini 44 günlük şanlı Vətən müharibəsində göstərmişlər. Müzəffər ordumuzun sıralarında yüzlərlə sumqayıtlı gənc könüllü olaraq işğalçılara qarşı döyüşlərdə iştirak etmişdir.

Görüşdə Sumqayıt "ASAN xidmət" Mərkəzinin könüllülər üzrə məsul şəxsi Fidan Pirverdiyeva, Qızıl Aypara Cəmiyyətinin Sumqayıt bölməsinin gənclər üzrə təlimatçısı Lalə Cəlilzadə, şəhər Gənclər Klubunun sədri Emil Məmmədov və Sumqayıt Könüllülər Cəmiyyəti Təşəbbüs qrupunun rəhbəri Aytac Əkbərova bütün sahələri əhatə edən uğurlardan söhbət açmışlar.

Sonda qarşıdakı dövrdə görüləcək işlərlə bağlı geniş müzakirə aparılmışdır.

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

# "Buta Airways" Tbilisiyə uçuşlar yerinə yetirməyə başlayır

**Aviaşirkətin Mətbuat xidmətinin məlumatına görə, Azərbaycanın "Buta Airways" aşağıbüdcəli aviaşirkəti Gürcüstanın paytaxtına və əks istiqamətdə xüsusi reyslər həyata keçirməyə başlayır. Uçuş cədvəlinə əsasən, pandemiya dövründə Bakı-Tbilisi-Bakı istiqaməti üzrə aviadaşıyıcının ilk uçuşu martın 19-da yerinə yetiriləcək.**



Qeyd olunan marşrut üzrə uçuşlar həftədə üç dəfə - çərşənbə axşamı, cümə və bazar günləri həyata keçiriləcəkdir.

Ölkədəki epidemioloji vəziyyətlə əlaqədar tətbiq olunan məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super".

Belə ki, "Standart" tarifinə (55 avrodan başlayaraq) çəkisi 10 kq-dan artıq olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 158 sm-dən böyük olmayan qeydiyyatdan keçən baqajın daşınması daxildir. "Super" tarifinə (75 avrodan başlayaraq) çəkisi 23 kq-dan artıq olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 158 sm-dən böyük olmayan qeydiyyatdan keçən baqajın, habelə çəkisi 10 kq-dan çox olmayan və ölçüləri üç ölçünün cəmi üzrə 118 sm-dən çox olmayan əlavə baqajın daşınması daxildir.

Hər iki tarifə ödənişsiz olaraq yer seçimi və hava limanında qeydiyyat opsiyaları daxildir.

Bakı-Tbilisi-Bakı marşrutu üzrə reys üçün biletləri ("Super" və "Standart" tarifləri üzrə) aviaşirkətin **www.butaairways.az** rəsmi saytında əldə etmək mümkündür. Biletləri həmçinin aviaşirkətin rəsmi agentliklərindən də əldə edə bilərsiniz (yalnız "Super" tarifi üzrə).

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm də gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstəriləcəkdir.

Mövcud epidemioloji məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası daşımaya qəbul olunacaq.

Bakı-Tbilisi istiqaməti üzrə reysin sərnişinləri:

- Gürcüstan ərazisinə giriş hüququna malik olmalıdılar. Pandemiya dövründə Gürcüstana giriş qaydaları ilə aviaşirkətin saytında aşağıdakı keçid vasitəsilə tanış ola bilərsiniz **https://www.butaairways.az/az/covid/georgia**

- koronavirus infeksiyasının olmaması barədə tibbi arayış almalıdırlar (ingilis dilində). Azərbaycanda koronavirus infeksiyasına dair testdən keçə biləcəyiniz klinikaların siyahısı aviaşirkətin saytında dərc edilmişdir: **https://www.butaairways.az/az/covid/clinics.**

Tbilisi-Bakı istiqaməti üzrə reysin sərnişinləri:

- Azərbaycan ərazisinə giriş hüququnun olub-olmadığını yoxlamalıdırlar. Azərbaycan ərazisinə giriş icazəsi olan şəxslərin siyahısı ilə aşağıdakı keçiddən istifadə etməklə tanış ola bilərsiniz: **https://www.butaairways.az/az/covid/azerbaiyan.**

- Synevo laboratoriyasının filiallarından birində koronavirus infeksiyasının olmaması barədə arayış almalıdırlar və ya QR-kod qeyd olunan COVID-19-a dair PCR-testinin mənfi nəticəsi barədə arayış təqdim etməlidirlər (QR-kodun həqiqiliyi qeydiyyat masalarında yoxlanılacaq).

Tərəfdaş klinikaların şəbəkəsi genişləndikcə siyahı daha da artacaqdır.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən, Bakıya aviareyslərlə gələn bütün sərnişinlər iki həftə ərzində özünütəcrid şəraitində qalmalıdırlar.

Hər iki istiqamət üzrə reyslərin sərnişinləri COVID-19 testinin nəticəsinin uçuşdan əvvəl 48 saat ərzində etibarlılığından əmin olmalıdırlar.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə və ölkədəki epidemioloji vəziyyətlə əlaqədar olaraq sərnişinləri qarşılayan və yola salan vətəndaşlar terminal binasına buraxılmayacaq.

# AzerGold
QAPALI SƏHMDAR CƏMİYYƏTİ

# "AzerGold" QSC-nin xarici şirkətlərlə uğurlu əməkdaşlıq təcrübəsi var

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov Pakistan İslam Respublikasının Sərhəd İşləri Təşkilatının baş direktoru, general-mayor Kamal Azfarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**




"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti Mətbuat xidmətinin verdiyi məlumata görə, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin yüksək səviyyədə olduğu, iqtisadi sahədə, xüsusilə də dağ-mədən sektorunda əməkdaşlıq üçün böyük imkanların mövcudluğu qeyd olunub.

"AzerGold" QSC-nin geoloji kəşfiyyat, hasilat, eləcə də digər sahələr üzrə əldə etdiyi nailiyyətlər, yeni mədənlərin işə salınması və dağ-mədən sektorunda iqtisadi səmərəliliyin artırılması istiqamətində görülən işlər haqqında ətraflı məlumat verən Zakir İbrahimov "AzerGold"un xarici şirkətlərlə uğurlu əməkdaşlıq təcrübəsinin olduğunu diqqətə çatdırıb.

Bildirilib ki, hasilat işlərinə cəmi bir mədəndən başlayan "AzerGold" bir neçə əlvan metal yatağının istismara hazırlanması istiqamətində fəal iş aparmaqla yanaşı, ötən ilin sonunda daha bir qızıl yatağının, "Ağyoxuş 1"in istismara verilməsinə nail olub. Üstəlik, fəaliyyətdə olan "Çovdar" Filiz Emalı Sahəsinin bazasında müstəqil şəkildə istismarı səmərəsiz hesab edilən bir neçə yataqdan ("Ağyoxuş 2" "Ağyoxuş 3", "Mərəh", "Tülallar" və "Narçala" qızıl yataqları) hasil edilən filizlərin mərkəzləşdirilmiş qaydada, vahid istehsal sahəsində emal edilməsinə şərait yaradan İnteqrəolunmuş Emal Sahəsinin yaradılması istiqamətində əməli addımlar atılıb. Sözügedən sahənin yaradılması yeni emal zavodu və müvafiq infrastruktur qurulmadan həmin yataqların mərhələli şəkildə, səmərəlilik əmsalı yüksəldilməklə istismarına zəmin yaradıb.

İdarə Heyətinin sədri bildirib ki, təsdiqlənmiş plan əsasında 2021-2027-ci illər ərzində "Çovdar" qızıl yatağının sulfid mərhələsi üzrə istismarı da daxil olmaqla daha 6 qızıl yatağının, eləcə də 1 polimetal və 4 mis yatağının istifadəyə verilməsi planlaşdırılır.

Zakir İbrahimov müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun şanlı qələbəsi nəticəsində azad edilən Qarabağ regionunun dağ-mədən sektorunda əməkdaşlıq üçün yeni perspektivlər açdığını vurğulayıb.

Rəhbərlik etdiyi təşkilatın Pakistanda mülki və hərbi infrastruktur, kommunikasiya layihələrinin icrası, eləcə də mədənçilik sahəsi üzrə ixtisaslaşdığını diqqətə çatdıran general-mayor Kamal Azfar müəssisənin müasir tələblərə cavab verən şirkətə çevrilməsi məqsədilə "AzerGold"un mədənçilik, xüsusilə qızıl yataqlarının istismarı sahəsindəki qabaqcıl təcrübəsindən yararlanmaq niyyətində olduqlarını, bu məqsədlə cəmiyyətin peşəkar mütəxəssislərindən ibarət heyət tərəfindən təlimlərin keçirilməsi təşəbbüsünü irəli sürüb.

İdarə Heyətinin sədri isə, öz növbəsində, mədənçilik sahəsində təcrübə mübadiləsinin vacibliyini vurğulayaraq, "AzerGold"un beynəlxalq səviyyədə təlimlərin təşkili istiqamətində kifayət qədər təcrübəsinin olduğunu, dost və qardaş Pakistan dövlətinə hər zaman dəstək göstərməyə hazır olduqlarını diqqətə çatdırıb.

Görüşün davamında təcrübə mübadiləsi və birgə fəaliyyətə dair fikir mübadiləsi aparılıb, atılacaq növbəti addımlar müzakirə olunub. Tərəflər yaxın zamanda təcrübə mübadiləsinin həyata keçirilməsi üçün təlim planının hazırlanması ilə bağlı razılığa gəliblər.

# Qlobal bəlaya qarşı uğurlu mübarizə

## Peyvəndləmə prosesi mərhələli şəkildə davam edir

*Əvvəli 1-ci səh.*

Sosial cəhətdən yüksək risk qrupuna səhiyyə işçiləri, hüquq mühafizə orqanlarının əməkdaşları, hərbi qulluqçular, təhsil sahəsində və sosial sektorda çalışanlar, sosial müəssisələrdə daimi yaşayanlar, "ASAN xidmət", DOST mərkəzlərində, ictimai nəqliyyat sektorunda, telekommunikasiya operatorları və provayderləri, poçt sahəsində, bank sektorunda birbaşa əhali ilə təmasda olan işçilər aiddirlər.

Tibbi cəhətdən yüksək risk qrupuna yaşı 65-dən yuxarı olan, yəni yaşlı əhali, tənəffüs sisteminin xroniki xəstəlikləri, xroniki hemodializ xəstələri, II tip şəkərli diabetdən əziyyət çəkən 50 yaşdan yuxarı əhali, 18 yaşından yuxarı piylənmədən əziyyət çəkənlər aiddirlər.

Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır. Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaqdan, infeksiyanın ötürülməsini məhdudlaşdırmaqdan, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

Mütəxəssislərin də söylədiyi kimi, vaksinasiya mərhələsində də COVID-19-dan maksimum qorunmaq, pandemiya şərtlərinə əməl etmək lazımdır.

Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov qeyd edib ki, COVID-19 infeksion xəstəliklərdən biridir: "Bizim bu infeksiyaya yoluxub-yoluxmamağımız, yoluxduqda xəstəliyi simptomsuz və ya müxtəlif əlamətlərlə yüngül və ya ağır, fəsadların inkişafı ilə keçirməyimiz məhz fərdi immunitetimizdən asılıdır".

Onun sözlərinə görə, digər infeksion xəstəliklərdə olduğu kimi, bu xəstəlik zamanı da anadangəlmə immunçatışmazlığı, yanaşı xroniki xəstəlikləri olan insanların böyük hissəsi risk qrupu olaraq xəstəliyi daha ağır keçirir. Bu səbəbdən onlarda müxtəlif ağırlaşmalar baş verir ki, bəzən də bu, ölümə səbəb olur. Ona görə də COVID-19-dan qorunmağın başlıca yolu gigiyenik qaydalara əməl etmək və immuniteti gücləndirməklə yanaşı, vaksinasiya vasitəsilə infeksiyaya qarşı süni immunitetin əldə olunmasıdır.

Baş infeksionist immun sistemini qorumağa və gücləndirməyə kömək edəcək tövsiyələri də açıqlayıb: "İllik qrip peyvəndi də daxil olmaqla vaksinasiya cədvəlinə laqeyd yanaşmayın. Qida maddələrinin, vitaminlərin və minerallaların miqdarının balanslı qəbuluna diqqət edin, normal gecə yuxusunu təmin edin. Yuxu zamanı yeni immun hüceyrələr əmələ gəlir. Bədənin müqavimətinin azalmasına səbəb olduğu üçün stresdən yayınmaq lazımdır. Yaxşı əhvali-ruhiyyənin sağlamlığın açarı olduğuna dair fikirlər əfsanə deyil, çünki immunitetimiz sinir və hormonal sistemlərlə qarşılıqlı əlaqədə işləyir. Özünüzü fiziki formada saxlayın, açıq havada daha çox vaxt keçirin. Yaxşı qan dövranı immun hüceyrələrin bədənimizin hər tərəfinə çatmasına və qoruyucu funksiyasını yerinə yetirməsinə imkan yaradır".

COVID-19 təhlükəli bəladır, amma ondan qorunmaq da mümkündür. Yetər ki, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşılmasın, sadə gigiyenik qaydalara riayət edilsin. Maska taxmaqla, sosial məsafəni saxlamaqla, sağlam həyat tərzi keçirməklə qorunmaq və immuniteti gücləndirmək olar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Paşinyan referenduma gedir

*Əvvəli 1-ci səh.*




Görünən odur ki, hakimiyyət çevrilişinə cəhddə ittiham olunan baş qərargah rəisi ilə bağlı təqdimatı geri qaytarması, təhlükəsizlik şurasının sonuncu iclasında iştirak etməməsi Ermənistan prezidentini qiyamın iştirakçısına çevirir. Yəni atdığı son addımlarla A.Sarkisyan da hüquqi-psixoloji cəhətdən özünü hakimiyyət çevrilişi cəhdlərinə bulaşdırmış oldu. Ona görə Paşinyan hakimiyyətdə qalarsa, prezident üçün daha ağır günlər də başlaya bilər.

Dünən isə Paşinyan səhhətində problemlər olan A.Sarkisyanın evinə gedərək onu bu yolla ələ almağa çalışıb. Prezident isə onun tələbini yerinə yetirməyib və tərəflər arasında fikir ayrılıqları hələ də qalır.

Paşinyanın tərəfdarları isə vəsatəti imzalaması üçün prezidentə təzyiq edir. Belə ki, "Mənim addımım" fraksiyasından olan deputat Vaaqn Ovakimyan Armen Sarkisyana impiçment tətbiq olunacağını istisna etməyib. Bildirib ki, indiki halda A.Sarkisyan öz səlahiyyətlərini özbaşına həyata keçirib, bu, ölkədə sabitliyin pozulmasına gətirə və dövlət təhlükəsizliyini təhlükə altında qoya bilər: "Ən emosional təsəvvürə sahib olan insan belə bu prosesdə heç bir antikonstitusion element görə bilməz. Biz, əslində, prezidentin səlahiyyətlərindən özbaşına istifadəni görürük. Prezidentin səlahiyyətlərini özbaşına həyata keçirməsi dövlət təhlükəsizliyini təhlükə altına ala və vəziyyətin qeyri-sabitləşməsinə səbəb ola bilər. Konstitusiyanın 141-ci maddəsinin kobud şəkildə pozulmasını əsas götürərək prezidentin impiçment prosesinə başlamaq olar".

Ermənistan təhlükəsizlik şurası ordunun siyasi proseslərə cəlb edilməsi cəhdlərini qınayan və prezidenti baş qərargah rəisinin istefaya göndərilməsi ilə bağlı sənədi imzalamağa çağıran bəyanat yayıb. Qeyd olunub ki, konstitusiya silahlı qüvvələrin mülki nəzarətdə olduğunu müəyyənləşdirir və onların siyasi proseslərə cəlb olunmasını qadağan edir. Qanuna görə, hökumət başçısı öz mülahizəsinə əsasən baş qərargah rəisinin vəzifəsindən kənarlaşdırılması barədə vəsatət qaldırır. Prezident isə, öz növbəsində, konstitusiyaya əməl olunmasına nəzarət edən ən vacib qurumun rəhbəri olaraq adekvat yanaşma göstərmək öhdəliyi daşıyır. "Təhlükəsizlik şurası yuxarıda göstərilənlərə əsaslanaraq, prezidenti baş qərargah rəisinin vəzifəsindən kənarlaşdırılması və müvafiq bir fərman imzalaması ilə bağlı vəsatətini təmin etməyə çağırır", - deyə bəyanatda qeyd olunub.

### Müxalifət impiçmentə qarşı çıxır

Parlamentdəki müxalif "Maariflənmiş Ermənistan" fraksiyasının lideri Edmon Marukyan "Facebook" səhifəsində həmkarı Vaaqn Ovakimyanın ölkə prezidentinin impiçment ehtimalı ilə bağlı açıqlamasına münasibət bildirərkən yazıb ki, Ermənistanın hazırkı hakimiyyəti heç kimlə ortaq dil tapmağa çalışmır və vəziyyəti həll etmək üçün addım atmır. "Hər kəslə dil və bu böhrandan çıxmaq üçün həll yolu tapmaq əvəzinə hökumət prezidentə impiçment üçün əsasların olduğunu bəyan edir. Bənzər bir prosesin parlamentdə başladıldığını təsəvvür edirsiniz? Özünüzü məhv etmənin son nöqtəsinə çatmaq istəyirsinizsə, bunu edin", - deyə müxalif deputat Marukyan bildirib.

Deputat həmçinin qeyd edib ki, əgər Ermənistan parlamentinin hakim fraksiyasının deputatları konstitusiya məhkəməsinin razılığını almasalar və üçdəiki səs toplamasalar, prezidentin impiçmenti prosedurunu reallaşdıra bilməyəcəklər. İmpiçment üçün "Mənim addımım" blokuna 88 səs (hazırda blokda 83 səs var) lazımdır. Bir sıra müstəqil deputatlar da var ki, onların da mövqeyi bəlli deyil. İmpiçment prezident institutuna birbaşa təhdiddir. Bu proses hakim qüvvə üçün siyasi sui-qəsd olacaq".

Bu arada Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisinin sabiq müavini, general-leytenant Aykaz Baqmanyan da qiyamçıların tərəfinə keçdiyini bəyan edib. O, baş qərargahın Nikol Paşinyanı və hökuməti istefaya çağıran bəyanatına qoşulub. "Mən hesab etmirəm ki, silahlı qüvvələr bu bəyanatı düşünmədən verib. Mən düşünürəm ki, onlar ciddi qərar qəbul ediblər və bu bəyanata qoşularaq onu müdafiə edirəm", - deyə general-leytenant bildirib. Daha sonra Baqmanyan əlavə edib: "Məğlub ölkənin lideri postunda qala bilməz, 10 noyabrda o, istefaya getməli idi. İndi o, "1 mart"ı təkrarlamaq istəyir, hansı ki, 2008-ci ildə baş vermişdi - güllələnmə, yanan maşınlar və s". - deyə qiyamçı general bildirib.

Dünən Ermənistanın sabiq prezidenti Levon-Ter Petrosyanın rəhbərlik etdiyi Erməni Milli Konqresinin təşkilatçılığı ilə mitinq keçirilib. İştirakçılar 2008-ci ilin 1 mart tarixində öldürülən şəxsləri yad ediblər.

Xatırladaq ki, 2008-ci il martın 1-də keçirilən aksiya iştirakçıları Serj Sarkisyanın prezident seçilməsinə etiraz ediblər. Yerevanda polislə aksiya iştirakçıları arasında baş vermiş toqquşma nəticəsində azı 8 nəfər etirazçı qətlə yetirilib, daxili qoşunların 2 əməkdaşı ölüb. Baş verənlərlə bağlı indiyədək cinayət işi açılmayıb və insanların qətlinə görə heç kəs cəzalandırılmayıb.

Ermənistanın baş naziri Nikol Paşinyan vəzifəyə gəldikdən sonra mart hadisələrinin istintaqına dair göstəriş verib. Nəticədə xüsusi istintaq qrupu yaradılıb və 2008-ci il fevralın 23-dən martın 2-nə qədər vəzifədə olmuş müdafiə naziri və digər rəsmilərə qarşı cinayət işi qaldırılıb.

### Paşinyan Serj Sarkisyanı ordunu təhrik etməkdə günahlandırdı

Dünən isə baş nazir Yerevanın Respublika meydanında, müxalifətin "Vətəni xilas hərəkatı" isə Baqramyan prospektində mitinq keçiriblər.

Nikol Paşinyan mitinqdə çıxış edərək erməni xalqından buraxdığı kobud səhvlərə də görə üzr istəyib. Bildirib ki, son 10 ayda hökuməti hər cür səhvlər buraxıb. Buna görə erməni xalqından üzr istəyir. On minlərlə də insanın iştirak etdiyi mitinq çox izdihamlı keçib. Tərəfdarlar "Xilaskar, Nikol!", "Hər zaman səninləyik, Nikol!" şüarlarını səsləndiriblər.

Baş nazir oktyabrda ölkədə yeni referendum keçiriləcəyinin də anonsunu verib. Deyib ki, referendum ölkəni yenidən prezident respublikası formasına qaytarmaq üçün təşkil olunacaq. Hökumət rəhbəri müxalifətin müvafiq memorandum imzalayacağı təqdirdə növbədənkənar seçkilərə getməyə hazır olduğunu da əlavə edib. "Gəlin seçkiyə gedək və baxaq, xalq kiminlədir", - deyə o söyləyib.

Paşinyan keçmiş prezident Serj Sarkisyanı ordunu təhrik etməkdə günahlandıraraq deyib ki, 2008-ci ilin martında xalqa qarşı ordunu yeridən keçmiş prezident indi də bunu etməyə çalışır: "Bu insanlar ordunu xalqa və hökumətə qarşı yönəltməyə çalışırlar. Əks təqdirdə baş qərargahın açıqlamasını izah edə bilmərəm".

Müxalifətin təşkil etdiyi mitinq isə çox sönük keçib. Baş nazirin əleyhdarları hökumət binasına soxulublar. Müxalifətçilər birinci mərtəbədəki foyedə mitinq keçirərək nazirliklərin işçilərini Paşinyan tərəfdarlarının mitinqlərində iştirak etməməyə çağırıblar. Bundan sonra onlar Paşinyanın istefasını tələb edən şüarlar səsləndirərək binanı tərk ediblər.

Göründüyü kimi, Ermənistanda siyasi vəziyyət ağır olaraq qalır. Baş nazirlə prezident və ordu arasında münasibətlər gərginləşməkdə davam edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm

## İran ABŞ ilə nüvə razılaşması barədə danışıqlar aparmaq təklifini rədd etdi

Tehran Avropa İttifaqının ABŞ nümayəndələri ilə nüvə razılaşmasının şərtlərinə qayıtmaq mövzusunda birbaşa danışıqlar aparmaq təklifini rədd etmişdir. İran Xarici İşlər Nazirliyi bəyan etmişdir ki, danışıqlara başlamaq üçün ilk şərt Vaşinqtonun sanksiyaları ləğv etməsidir.

Nazirliyin rəsmi nümayəndəsi bildirmişdir ki, ABŞ-ın yeni Prezidenti Co Bayden sələfi Donald Trampın siyasətini Tehrana maksimum təzyiq göstərməklə davam etdirir. Qərb diplomatlarının dediyinə görə, İran əvvəlcə belə bir zəmanət almaq istəyir ki, amerikalılarla ilk görüşdən sonra ABŞ sanksiyaların bir hissəsini ləğv edəcək.

Ağ ev İranın danışıqlardan imtina etməsindən məyus olduğunu bildirsə də, nüvə sazişinə qarşılıqlı olaraq qayıtmaq üçün diplomatik yollar axtarmağa hələ də hazırdır. Gözlənildiyinə görə, bu məsələnin tezliklə BMT Təhlükəsizlik Şurasında ABŞ-ın və veto hüququ olan digər dövlətlərin, eləcə də Almaniyanın iştirakı ilə müzakirə mövzusuna çevriləcək.

## Planet əhalisinin 10 faizindən azı koronavirusa qarşı anticisim əldə edib

Hazırda Yer kürəsi əhalisinin 10 faizindən azının koronavirusa qarşı anticismi var. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş elmi işçisi Sumiya Svaminatan məlumat vermişdir.

Svaminatan qeyd etmişdir ki, ÜST dünyanın bəzi şəhərlərində infeksiya ocaqları ilə bağlı araşdırmaları izləyir. Onun dediyinə görə, bəzi hallarda ocaq sakinlərinin azı 50 faizində anticisim ola bilsə də, tədqiqatlar göstərir ki, dünya miqyasında əhalinin orta hesabla 10 faizindən azı anticisim əldə etmişdir.

ÜST-ün nümayəndəsi vurğulamışdır ki, peyvəndləmə kollektiv immunitetə nail olmağın yeganə yolu olaraq qalır.

## Slovakiyada komendant saatı tətbiq olunacaq



Slovakiya hökuməti koronavirusun yayılması üzündən ölkədə komendant saatı tətbiq etmək qərarına gəlmişdir. Bu barədə TA3 telekanalı xəbər verir.

Komendant saatı martın 3-dən tətbiq ediləcək və yerli vaxtla saat 20:00-dan 01:00-dək qüvvədə qalacaq. Üstəlik, evdən üzrlü səbəb olmadan çıxmaq saat 05:00-dan 20:00-dək qadağan olunacaq. Ölkə sakini evini tərk edərkən əlində sənəd olmalıdır: məsələn, işəgötürənin verdiyi arayış və ya yaşayış yerini göstərən şəxsiyyət vəsiqəsi. Bundan başqa, 8 martdan etibarən mağazalarda və ictimai nəqliyyatda, 15 martdan etibarən hər hansı ictimai yerdə FFP2 respiratoru taxmaq məcburi olacaq.

Yeni məhdudiyyətlər elm adamları və epidemioloqlarla danışıqlardan sonra təsdiqlənmişdir. Bu tədbirlər martın 21-dək infeksiya ilə mübarizədə kifayət qədər effektiv olmasa, ölkə karantinə hazırlaşacaq.

## Liviya sahillərində 100 miqrant xilas edildi



Liviyanın qərb sahillərində təxminən 100 miqrant xilas edilmişdir. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Kamerun, Sudan və Malidən olan mühacirlər qayıqla İtaliyaya çatmağa çalışırdılar. Onlar Trablisdəki hərbi dəniz bazasına aparılmışlar.

Sağ qalanlar arasında altı qadın və iki uşaq da var. İki ağır xəstə xəstəxanaya çatdırılmış, təxminən 20 nəfər itkin düşmüşdür.

Beynəlxalq Miqrsiya Təşkilatının məlumatına görə, ötən il 1,2 mindən çox miqrant Aralıq dənizini keçərkən həlak olmuşdur.

# Ümumdünya Mülki Müdafiə Gününə həsr olunmuş videokonfrans formatında tədbir keçirilib

Martın 1-də Fövqəladə Hallar Nazirliyinin (FHN) Mülki müdafiə işinin təşkili Baş idarəsinin təşkilatçılığı ilə "Milli iqtisadiyyatın qorunmasına yönəlmiş güclü mülki müdafiə" mövzusunda videokonfrans keçirilib.



FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, videokonfransda nazirliyin, müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, aidiyyəti təşkilatların, o cümlədən beynəlxalq təşkilatların məsul vəzifəli şəxsləri iştirak ediblər.

FHN-in Mülki müdafiə işinin təşkili Baş idarəsinin rəisi general-mayor Niyazi Zamanov tədbirdə çıxış edərək bildirib ki, əhalinin və ərazilərin təhlükəsizliyinin etibarlı təminatı üçün nazirliyin qəza-xilasetmə qurumlarının peşəkarlıq səviyyəsi durmadan artırılır, onların zəruri xilasetmə texnika və avadanlıqları ilə təchizatı məsələsinə xüsusi diqqət yetirilir, irimiqyaslı fövqəladə hallar zamanı mərkəzi və yerli icra hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatlarla qarşılıqlı fəaliyyətdə mülki müdafiə məsələlərinin həlli istiqamətində mühüm addımlar atılır.

Qeyd edilib ki, fövqəladə halların səmərəli idarə olunmasının təşkili, fövqəladə hallara dair məlumat və təcrübə mübadiləsinin həyata keçirilməsi, qarşılıqlı yardımların təmin edilməsi məqsədilə Beynəlxalq Mülki Müdafiə Təşkilatı ilə əməkdaşlıq çərçivəsində FHN tərəfindən hər il respublikanın bütün ərazisində 1 mart - Ümumdünya Mülki Müdafiə Günü ilə əlaqədar genişmiqyaslı tədbirlər həyata keçirilir. Bu tədbirlərdə əhaliyə mülki müdafiənin yaranma tarixi, məqsəd və vəzifələri, dövlətin mülki müdafiə sahəsində apardığı işlər, insanlara mülki müdafiə bilikləri, eləcə də fövqəladə hallar zamanı davranış qaydaları təbliğ olunur.

Sonra Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Fərzəli Qədirov, Səhiyyə Nazirliyinin nümayəndəsi, Azərbaycan Respublikasının baş infeksionisti Təyyar Eyvazov, İqtisadiyyat Nazirliyinin Səfərbərlik hazırlığı sektorunun müdiri Anar Orucov, Bakı Şəhər İcra Hakimiyyətinin Şəhər təsərrüfatı və sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin əməkdaşı Mirhəsən Həsənov, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycan nümayəndəliyinin Hüquq şöbəsinin müdir müavini Samirə Allahverdiyeva mövzu ilə bağlı məruzələrlə çıxış ediblər.

Videokonfransda FHN-in ictimaiyyətlə əlaqə idarəsinin hazırladığı və Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə sahəsində fəaliyyətindən bəhs edən videoçarx da nümayiş olunub.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

### *açıq tender elan edir*

**16 saylı regional ərazi filialının Balakən qəbul şöbəsinin inzibati binasının cari təmir işləri üzrəxidmətin satınalması**

Tender iştirakçılarına təklif edilir ki, https:www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**Tender 1 lot üzrə keçirilir.**
**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hh: AZ46CTRE00000000000007018504**
**Mh: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.

1. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Sənədin əsli skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;
2. Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
3. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
4. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir);
5. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və 2020-ci il üzrə);
6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı(sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir); 01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;
7. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;
8. Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;
9. Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial qaydada təsdiq edilməsi mütləqdir);
10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;
11. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmasını təsdiq edən sənəd.

Satınalan təşkilat ilə elektron satınalmanın iştirakçıları və ya onların özü arasında yalnız dövlət satınalmalarının vahid internet portalı vasitəsilə əlaqə saxlanılır

Dövlət satınalmalarını tənzimləyən normativ-hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq, yalnız mikro, kiçik və orta sahibkarlıq subyektlərinin iştirakı ilə Azərbaycan Respublikasında keçirilən elektron satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Satınalan təşkilatdan hüquqi, maliyyə və ya təşkilati asılılığı olan iddiaçıların həmin təşkilat tərəfindən keçirilən satınalma prosedurlarında iştirakına yol verilmir.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 30.03.2021-ci il saat 14:00-a qədər və tender təklifi ilə bank təminatı sənədlərini 07.04.2021-ci il saat 14:00-a qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 08.04.2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

### *açıq tender elan edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi maşın və avadanlıqların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**
**VÖEN: 1700093011**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ80CTRE00000000000002138501**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);** 20.02.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019 və ya 2020-ci illər üzrə);***
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı **(sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);** yalnız 20.02.2021-ci il tarixdən sonra alınan arayış qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. **Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.03.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.04.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.04.2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Sosial sığorta şəhadətnamələrinin çapı zamanı istifadə edilən kartların satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https:www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 50 (əlli) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**Hh: AZ46CTRE00000000000007018504**
**Mh: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: 142330**
**Büdcə səviyyəsinin kodu: 4**

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən, tenderdə iştirak haqqı geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və ya 2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) 01.03.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **31.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08.04.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **09.04.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu xidməti minik avtomobillərinin əsaslı təmir işlərinin satın alınması üçün

### *kotirovka sorğusu elan edir*

Təkliflər 04 mart 2021-ci il saat 14:00-a qədər Bakı şəhəri, H. Zərdabi prospekti, 80 ünvanına, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatına təqdim olunmalıdır.

Zərflər 04 mart 2021-ci il saat 15:00-da H.Zərdabi prospekti, 80 ünvanında nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Aparatının inzibati binasında açılacaqdır. Əlavə məlumatı Tender komissiyasından almaq olar.

**Əlaqə telefonu: (012) 530-29-03**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

**"Azərişıq"ASC** tərəfindən 22 dekabr 2020-ci il tarixdə Bakı RETSİ ərazisində enerji təchizatı şəbəkəsinə qoşulma ilə bağlı daxil olan, həmçinin Dünya Bankının "Doing Business" hesabatında "Azərişıq" ASC-nin reytinqinin qiymətləndirilməsi zamanı nəzərə alınan müraciətlərin icra müddətinə 1(bir) illik nəzarət edilməsi xidmətinin satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən, müvafiq LOT üzrə **"UNI ENERGY SERVICES" MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib təşkilatla müvafiq müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzinin inzibati binasında sanitariya-epidemioloji işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 25 fevral 2021-ci il qərarına əsasən, **"Sanitariya Epidemioloji Xidmətlər"** MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Dövlət Sosial Müdafiə Fondu PHŞ tərəfindən 04.02.2021-ci il tarixdə etender.gov.az saytında və "Azərbaycan" qəzetinin 05.02.2021-ci il tarixli nömrəsində Sosial sığorta şəhadətnamələrinin çapı zamanı istifadə edilən kartların satın alınması üzrə elan edilmiş açıq tenderdə iştirak etmək istəyən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə baş tutmamış hesab edilir və davamından imtina edilir.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollektivi iş yoldaşları Natiq Həsənova əzizi

**SİMA İSMAYILOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi tibb elmləri üzrə ekspert şurasının sədri, professor Kamran Musayevə qızı

**DİLAYIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

BDU Mexanika-riyaziyyat fakültəsinin dekanlığı və kollektivi Diferensial və inteqral tənliklər kafedrasının dosenti Hümbət Musayeva əzizi

**DİLAY MUSAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və fondun kollektivi icraçı direktorun müavini Rövşən Cavadova anası

**NÜBAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev "Azərikimya" İstehsalat Birliyinin Həmkarlar İttifaqı Komitəsinin sədri

**VAQİF ÖMƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə əzizi

**MƏHƏMMƏD İSKƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Yusif Məmmədov və akademik Fikrət Əliyev Kamran və Hümbət Musayevlərə əzizləri

**DİLAYIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları İrina Şuvalovaya bacısı

**ANTONİNA ALKAEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərbaycan" nəşriyyatının kollektivi iş yoldaşları Nadejda Ağarzayevaya qardaşı

**KAMİL AĞARZAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5235
Sifariş 421
Qiyməti 40 qəpik